QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 089 (5809) **17 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Biz sosialyönümlü siyasət aparırıq və bu siyasət öz nəticəsini verir"

*Prezident İlham Əliyev Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılışında iştirak edib*



Səh 2

6

"Biz onları müxalifətçi olduqlarına görə tənqid etmirik..."



6

"Avropanın küçələrini dolandın, Vətən indi yadına düşdü?"



12

Laçının işğalından 27 il ötür



# "Biz sosialyönümlü siyasət aparırıq və bu siyasət öz nəticəsini verir"

*Prezident İlham Əliyev Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılışında iştirak edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılış mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev və "Diamed" şpris istehsalı zavodunun təsisçisi Aytən Quliyeva dövlətimizin başçısına bu istehsal müəssisəsi barədə məlumat verdilər.***







Qeyd edək ki, hazırda Azərbaycanda Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamlarına uyğun olaraq kimya, təkrar emal, yüngül sənaye, gəmiqayırma, əczaçılıq sahələrində ixtisaslaşmış 5 sənaye parkı fəaliyyət göstərir. Bu sənaye parklarında 9 minə yaxın insan daimi işlə təmin olunub. Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı Sərəncama əsasən isə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin tərkibində Pirallahı Sənaye Parkı yaradılıb. Bu parkın yaradılmasında məqsəd qeyri-neft sənaye sahələrinin davamlı inkişafını, sənaye sahəsində sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsini, qabaqcıl texnologiyalara əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin yaradılmasını təmin etməkdir. Bundan başqa, bu layihənin icrası əczaçılıq sənayesinin inkişafı və dəstəklənməsi, əczaçılıq məhsullarının idxalından asılılığın azaldılması, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsində yerli istehsalın təşviqi və istehsal sahəsində əhalinin məşğulluğunun artırılması məqsədi daşıyır. Ümumi sahəsi 30 hektar olan parkın rezidentləri 7 il ərzində torpaq, gəlir, əmlak, əlavə dəyər vergilərindən, həmçinin idxal olunan texnika, texnoloji avadanlıqlara görə gömrük rüsumundan azaddırlar.



Park yaradılandan bəri burada əczaçılıq sahəsində bir sıra mühüm layihələrin həyata keçirilməsinə başlanılıb. Reallaşdırılan mühüm layihələrdən biri də şpris zavodudur. Azərbaycanda ilk şpris zavodu olan bu müəssisə Parkın 2017-ci ilin mayında rezidenti kimi qeydiyyata alınan "Diamed Co" MMC tərəfindən inşa edilib.

Dövlətimizin başçısı zavodu işə saldı.

Bildirildi ki, müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı zavodunun illik istehsal gücü 150 milyon şprisdir.

**Ardı Səh. 3**

# “Biz sosialyönümlü siyasət aparırıq və bu siyasət öz nəticəsini verir”

## *Prezident İlham Əliyev Pirallahı Sənaye Parkında “Diamed” şpris istehsalı zavodunun açılışında iştirak edib*

Əvvəli Səh. 2

İnvestisiya dəyəri 9,5 milyon manat olan bu layihəyə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 5 milyon manat güzəştli kredit verilib. İki hektar ərazidə yerləşən zavodda Almaniya, İsveçrə, İtaliya, Türkiyə, İngiltərə və Yaponiya texnologiyaları və avadanlıqlarından istifadə olunur. Müəssisədə istehsal edilən məhsullar yerli bazarın tələbatını ödəməklə yanaşı, Rusiya, Gürcüstan, İran və Orta Asiya ölkələrinə ixrac ediləcək. Bu isə “Made in Azerbaijan” brendi ilə ixrac olunan məhsulların çeşidini və sayını artırmağa imkan verəcək. Zavodda 150 yeni iş yeri yaradılacaq.










İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir. Dövlətimizin başçısının sənayenin inkişafı ilə bağlı strateji xəttinə uyğun olaraq, ölkəmizdə həyata keçirilən genişmiqyaslı sənayeləşmə siyasəti nəticəsində rəqabətqabiliyyətli və ixracyönümlü yüzlərlə yeni sənaye müəssisəsi yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlib, beləliklə, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub.

Dövlətimizin başçısı zavodun kollektivi ilə görüşdü.

Müəssisənin kollektivini salamlayan Prezident İlham ƏLİYEV dedi:

-Bu gün Pirallahı rayonunda çox əlamətdar hadisəni qeyd edirik. Burada istehsal ediləcək şprislər bizim səhiyyə sistemində istifadə olunacaq və beləliklə, Azərbaycan bu sahədə də idxaldan asılılığı aradan götürmüş olacaq.

Hər bir yeni müəssisənin açılışı məni sevindirir. Çünki hər bir müəssisənin açılışı yeni iş yerləri deməkdir. Mənə verilən məlumata görə, burada ilkin mərhələdə 30, sonra isə 150 yeni iş yeri yaradılacaq. Beləliklə, burada işsizliklə bağlı problemlər öz həllini tapacaq.

Bütövlükdə Pirallahı rayonunda işsizliklə problem demək olar ki, yoxdur. Son illərdə Pirallahı rayonunda çox böyük quruculuq-abadlıq işləri aparılıb, rayonun, adanın siması gözəlləşib, çox böyük inkişaf var, yaşayış binalarının təmiri, yeni ictimai zonaların, iş yerlərinin yaradılması, yeni körpünün salınması, yəni, bütün bunlar rayonun gələcək inkişafına qoyulan sərmayədir və rayona göstərilən diqqətdir.

Bu zavodda bizim siyasətimiz öz əksini tapır. Çünki idxaldan asılılığı azaltmaq bizim üçün əsas məsələlərdən biridir. Bu günə qədər biz şprisləri xaricdən alırdıq, indi isə buna ehtiyac qalmır, əksinə, verilən məlumata görə, artıq xaricdən sifarişlər də alınır. Beləliklə, həm daxili tələbat tam ödəniləcək, həm də biz öz yeni məhsulumuzu xaricə ixrac etmiş olacağıq. Bu, sənayemizin inkişafına verilən töhfədir. Ölkəmizdə sənaye istehsalı artır. Görülən işlər nəticəsində bu ilin dörd ayında qeyri-neft sektorunda 15 faizdən çox artım olub. Həm sənaye potensialımızı gücləndirən böyük müəssisələr fəaliyyətə başlayır, həm də kiçik və orta müəssisələr işə düşür. Ölkəmizdə çox gözəl biznes mühiti, sərmayə iqlimi var. Belə olmasaydı, xarici şirkətlər, yerli şirkətlər vəsait qoymazdılar. Beləliklə, biz biznes mühitinin yaxşılaşması nəticəsində yeni reallıqları görürük və əminəm ki, dinamik inkişafımız bundan sonra da təmin ediləcək.

İqtisadi və sosial sahədə aparılan islahatlar nəticə verir. Biz Dünya Bankının biznes mühitinə dair hesabatına görə, bu gün dünyada 25-ci yerdəyik. Mən bunu dəfələrlə qeyd edirəm ictimaiyyət bilsin ki, nə qədər böyük islahatlar aparılıb və aparılacaq. Bu, imkan verir ki, biz sosial sahəni də gücləndirək, işsizliyi aradan qaldıraq, yerli istehsalı artıraq və beləliklə, vətəndaşların sosial təminatını gücləndirək. Bu il atılan addımlar, imzalanmış sərəncamlar, qəbul edilmiş qərarlar bizim siyasətimizi əks etdirir. Biz sosialyönümlü siyasət aparırıq və bu siyasət öz nəticəsini verir.

Əlbəttə, gələcəkdə hələ çox işlər görüləcək. Regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı artıq icra edilməyə başlamışdır. Əminəm ki, bu il nəzərdə tutulan bütün vəzifələr icra ediləcək. Dinamik inkişafa nail olmaq üçün qeyri-neft sektorunun xüsusi rolu var. Biz bu məsələ ilə çox ciddi məşğuluq və nəticələr də göz qabağındadır. Biz bir neçə il bundan əvvəl bu zavodun yaradılmasını bəlkə də təsəvvür edə bilməzdik, xüsusilə Pirallahı rayonunda. Burada ümumiyyətlə qeyri-neft sektoru ilə bağlı işlər demək olar ki, yavaş gedirdi. Ancaq bu gün bu zavod reallıqdır. Bu, Pirallahı Sənaye Parkında birinci zavoddur. Çünki burada bir neçə müəssisə yaradılacaq. Hazırda tikməkdə olan böyük dərman preparatları zavodunun fəaliyyətə başlaması nəticəsində daha çox iş yerləri açılacaq və biz dərman preparatlarının idxalından asılılığı müəyyən dərəcədə aradan götürəcəyik. Digər zavodların fəaliyyətə başlaması nəzərdə tutulur. O cümlədən sosial məsələlər öz həllini tapır. Məcburi köçkünlər üçün yeni evlər tikilir və burada 300 köçkün ailəsi evlə təmin olunacaq, məktəb tikilir. Yəni, bu gün bu zavodun timsalında görülmüş işlərin gözəl nəticələrini görürük, siyasətimizin uğurlu nəticələrini görürük və bu, bizi gələcəkdə yeni addımların atılmasına sövq etməlidir. Biz düzgün yolla inkişaf edirik və dinamik inkişaf bundan sonra da mütləq gedəcək.

İslahatlarla bağlı bizim siyasətimiz bu gün burada bir daha özünü göstərir. Əminəm ki, növbəti dövrdə həm sənaye, həm kənd təsərrüfatı, həm də infrastruktur sahələrində daha geniş miqyasda əlavə nəticələr olacaqdır.

Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm, zavodun əməkdaşlarına uğurlar arzulayıram. Sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

# "Azərbaycan ilə Çexiya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Çexiya Parlamenti Deputatlar Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Çex Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi. Çex Respublikası Prezidentinin Azərbaycana səfərini xatırlayan Prezident İlham Əliyev parlamentlərarası əlaqələrin genişlənməsinin də münasibətlərin inkişafına töhfə verdiyini dedi. Dövlətimizin başçısı iqtisadi əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu bildirərək Çex Respublikası Hökuməti üzvlərinin də Azərbaycana uğurlu səfər etdiklərini dedi və iqtisadi, ticarət, investisiya sahələrində əlaqələrin genişləndirilməsinin zəruriliyini bildirdi. Prezident İlham Əliyev Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli keçəcəyinə və əlaqələrimizin möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyi ifadə etdi.

Çexiya Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçek Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarını dövlətimizin başçısına çatdırdı. Geniş nümayəndə heyəti ilə Azərbaycana səfər etdiklərini deyən Radek Vondraçek Çex Respublikası Parlamentində müxtəlif partiyaları təmsil edən Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun fəaliyyət göstərdiyini diqqətə çatdırdı. O bildirdi ki, Çex Parlament nümayəndə heyətinin Azərbaycana səferinin əsas məqsədi ölkələrimiz arasında mövcud olan çox yaxşı münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verməkdir. Radek Vondraçek Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatların təqdir edildiyini, Çexiya investorları tərəfindən Azərbaycana böyük maraq göstərildiyini diqqətə çatdırdı.

Görüşdə Azərbaycan Respublikası ilə Çex Respublikası arasında münasibətlərin həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində uğurla inkişaf etdiyi vurğulandı və eyni zamanda, hökumətlərarası birgə komissiyanın işinin fəallaşdırılmasının vacibliyi qeyd olundu. Dövlətimizin başçısı Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çexiya Prezidentinə çatdırmağı xahiş etdi.



## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Norveçin Kralı V Haralda təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Əlahəzrət, Norveç Krallığının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik etməkdən məmnunluq duyuram. Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Norveç xalqına daim sülh və firavanlıq arzulayıram".

***

Prezident İlham Əliyev "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

"Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar vergi və gömrük güzəştləri və azadolmalarının tətbiqi üçün təsdiqedici sənədin verilməsi Qaydası" təsdiq olunub.

***

Prezident İlham Əliyev Roza Cəlilovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan rəqs sənətinin inkişafı və təbliğindəki xidmətlərinə görə Roza İsmayıl qızı Cəlilova "Şöhrət" ordeni ilə təltif edilir.

***

Prezident İlham Əliyev Gəncə şəhəri ərazisində Gəncəçay çayı üzərində körpülərin bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Oqtay Əsədov: "Azərbaycan Çexiya ilə əlaqələrin hərtərəfli inkişafında maraqlıdır"



***Mayın 16-da Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, əvvəlcə Milli Məclisin sədri Oqtay Əsədovun Deputatlar Palatasının sədri Radek Vondraçek ilə təkbətək görüşü olub. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.***

Azərbaycan-Çexiya münasibətlərinin yüksək səviyyədə olduğunu bildirən Milli Məclisin sədri Oqtay Əsədov bu səfərin ölkələrimiz, həmçinin parlamentlərimiz arasında əlaqələrin inkişafına töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Milli Məclisin sədri deyib ki, Azərbaycan Çexiya ilə əlaqələrin hərtərəfli inkişafında maraqlıdır. Ölkələrimiz arasında əlaqələrin tarixindən danışan O.Əsədov qeyd edib ki, hələ Sovet dövründə Azərbaycanın Çexiya ilə təhsil, elm sahələrində yaxşı əlaqələri olub. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyub. Bu əlaqələrin yüksək səviyyəyə çıxmasında dövlət başçılarının qarşılıqlı səfərləri böyük rol oynayıb.

Azərbaycan və Çexiya parlamentlərarası əlaqələrindən danışan Milli Məclisin sədri bildirib ki, bu əlaqələr ölkələrimiz arasında münasibətlərin genişləndirilməsinə dəstək verir.

Oqtay Əsədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək diqqətə çatdırıb ki, bu məsələdə Çexiya hər zaman Azərbaycanın ərazi bütövlüyünü, ölkəmizin beynəlxalq hüququn norma və prinsiplərinə söykənən ədalətli mövqeyini dəstəkləyir. Qeyd olunub ki, Ermənistan XX əsrin sonunda Azərbaycanın Xocalı şəhərində soyqırımı törədib. Dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın bir sıra ştatları Xocalı soyqırımını tanıyıb. Çexiya parlamenti də 2013-cü ildə bu qətliamı pisləyib.

Çexiya Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçek ölkələrimiz arasındakı münasibətlərin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirib. Çexiya və Azərbaycan arasında parlamentlərarası münasibətlərin yaxşı səviyyədə olduğunu söyləyən Radek Vondraçek parlamentlərarası dostluq qruplarının fəaliyyətindən məmnunluğunu ifadə edib. Söhbət zamanı iki ölkə arasında iqtisadi-ticari, sərmayə qoyuluşu sahələrinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# YAP-da sərgi iştirakçılarına fəxri fərmanlar təqdim olunub





***Yeni Azərbaycan Partiyasının mərkəzi qərərgahında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə təşkil olunmuş gənc rəssamların sərgisində iştirak edən rəssamların təltif olunması mərasimi keçirilib. SİA-nın verdiyi məlumata görə, Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov gənc rəssamların sərgisinin böyük marağa səbəb olduğunu və çoxsaylı insanlar, o cümlədən partiyamızın üzvləri tərəfindən izlənildiyini bildirib.***

O, sərginin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmasının xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edib. Əli Əhmədov qeyd edib ki, sərgidə dünyada tanınmış rəssam Sakit Məmmədovun tələbələrinin əsərləri təqdim olunub. Bu yaxınlarda Sakit Məmmədovun rəsm əsərlərinin Böyük Britaniyanın Kral Sarayında da nümayiş etdirildiyini deyən YAP İcra katibi söyləyib ki, azərbaycanlı rəssam bütövlükdə ölkəmizinin mədəniyyətini və incəsənətini, Azərbaycan həqiqətlərini dünyaya təqdim edir.

Əli Əhmədov qeyd edib ki, dövlətimizin mədəniyyət və incəsənət sahəsinə göstərdiyi böyük diqqət və qayğı nəticəsində ölkəmizdə çox istedadlı yaradıcı insanlar formalaşıb: “Onların əsərləri dünya miqyasında tanınır. Bu fakt bilavasitə ölkəmizin təbliğatında da mühüm rol oynayır”.

Sərginin YAP-da keçirilməsinin əhəmiyyətindən danışan Əli Əhmədov deyib ki, bu fakt gənc rəssamların və onların əsərlərinin daha geniş şəkildə tanınmasına xidmət edəcək. Eləcə də, YAP gənc incəsənət adamlarının yaradıcılıq işlərinin bundan sonra da təbliğ olunması işinə dəstək verməyə hazırdır: “Bu tədbir, YAP ilə gənc rəssamların, mədəniyyət və incəsənət adamlarının əməkdaşlığı kimi nəzərdən keçirilə bilər. Biz mədəniyyət və incənətə dəstək göstərməyə çalışırıq. Bu sərgi də gənc rəssamların tanıdılması və təbliğ olunması baxımından əhəmiyyətlidir. Sərgidə əsərləri təqdim olunan gənc rəssamların böyük gələcəyi var. Bu sərgi onların daha da tanınmasına dəstək verəcək. İnanıram ki, gələcəkdə böyük, məşhur rəssamların arasında onların da adı olacaq”.

Sonra gənc rəssamlara Yeni Azərbaycan Partiyasının fəxri fərmanları təqdim olunub.

***Ceyhun Rasimoğlu***











## "Biz onları müxalifətçi olduqlarına görə tənqid etmirik..."



"Biz xaricdə yaşayan bəzi azərbaycanlıların hakimiyyətlə əməkdaşlıq istiqamətində fikirlərini müsbət qiymətləndiririk. İstərdik ki, ölkəmizin bu ya digər formada siyasi həyatında iştirak edənlərin hər biri milli maraqlardan çıxış etsinlər". SİA-nın verdiyi məlumata görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov deyib.

YAP-ın Sədr müavinin sözlərinə görə, milli maraqlar daim uca tutulmalıdır: "Kim ki, bu düzgün yolla addımlayacaq, onlar cəmiyyət tərəfindən müsbət qiymətləndiriləcək. İkinci tərəfdən, onlar bu addımları ilə dövlətin mövqeyinin daha da güclənməsinə xidmət göstərmiş olacaqlar. Heydər Əliyev deyirdi ki, kim istəyirsə müxalifətdə olsun, amma xalqa, dövlətə müxalifətdə olmasın. Bizim də istəyimiz ondan ibarətdir ki, siyasi mövqeyindən, düşüncəsindən asılı olmayaraq hər bir azərbaycanlı ilk növbədə Azərbaycan vətəndaşı olduğunu dərk etsin, milli maraqları qorusun, davranışları ilə xalqa, dövlətə ləkə gətirməsin. İndiyə qədər müxalifətin bəzi təmsilçiləri ilə əlaqədar söylədiyimiz tənqidi fikirlərin kökündə də bu dayanır.

Biz müxalifətçiləri müxalifətçi olduqlarına görə tənqid etmirik, onların içərisində bəzilərini özlərinin və yaxud partiyanın, xidmət etdikləri hansısa dairələrin maraqlarını xalqın maraqlarından üstün tutmalarına görə tənqid edirik. Bundan başqa səbəbimiz yoxdur. Əgər bu yoldan çəkinəcəklərsə, konstruktiv mövqedə olacaqlarsa, iqtidar onların hərəkətlərinə normal yanaşacaq. Bu düzgün yolda onlara uğurlar arzu edirəm. O ölkələr siyasi cəhətdən inkişaf edir ki, orada müxalifət ölkənin maraqlarını uca tutur və hər hansı xarici qüvvənin əlində alətə çevrilmir".

## "Avropanın küçələrini dolandın, Vətən indi yadına düşdü?"



"Mayın 13-də Brüsseldə 3-4 nəfər anti-milli ünsürün aksiya keçirmək cəhdi bu insanların Azərbaycan dövlətinə və xalqına düşmən münasibətini əyani şəkildə nümayiş etdirir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov deyib.

YAP-ın İcra katibinin müavinin sözlərinə görə, anti-milli ünsürlərin keçirməyə cəhd etdikləri aksiya Prezidentin qaldığı otelin qarşısında deyildi, əksinə, başqa yerdə idi: "İkincisi isə burada erməni izinin və erməni lobbisinin maliyyəsinin olduğu danılmazdır. Hətta deyərdim ki, erməniyə qulluq edənlər göz qarşısında idilər. İlk növbədə onlar mədəniyyətdən, mənəviyyatdan tamamilə uzaq insanlardırlar. Ümumiyyətlə, bu şəxslərdə milli təəssübkeşlik anlayışı yoxdur. Avropada "siyasi mühacir" adı altında dövlətçilik və milli maraqlarımıza qarşı fəaliyyət göstərən blogger Orduxan Teymurxan (Bəbirov) deyir ki, "Mən Qarabağdanam". Əgər sən Qarabağdansansa niyə həm sən özün, həm də qardaşların bu torpaqları qoyub qaçırdınız? Hansı ki, Qarabağda, Cəbrayılda insanlar müharibə zamanı döyüşəndə və orada şəhid verəndə sizlərin heç biri o prosesdə iştirak etməmisiniz. İndi isə Vətən haqqında danışırsınız. Axı sən Vətənə nə vermisən ki, indi durub Vətən haqqında danışırsan? Ümumiyyətlə sənin danışmağa hansı mənəvi haqqın var? Avropanın bütün küçələrini dolandın və indi Vətən yadına düşdü? Erməni lobbisinin verdiyi pul artıq özünü göstərir. Bütün bunların hamısı Azərbaycan cəmiyyəti çox gözəl bilir və başa düşür. Ümumiyyətlə, bunların hələ başı çıxmır ki, təhlükəsizlik nə deməkdir və dövlət başçısı nədir. Onlar səviyyələrinin nə dərəcədə aşağı olduğunu orada bir daha nümayiş etdirdilər".

## Baş Nazir Novruz Məmmədov XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub



Mayın 16-da Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi - "WorldFood Azerbaijan" və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri ilə tanış olub. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib.

Baş Nazirə məlumat verilib ki, sərgilərdə dünyanın 32 ölkəsini, ümumilikdə, 440 şirkət, eləcə də 11 milli və regional qrup təmsil edir. "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgilərində Azərbaycan ilə yanaşı, Litva, Rusiya, Sloveniya, Ukrayna, Xorvatiya və digər ölkələrdən şirkətlər yer alır. İtaliya, Türkiyə, Belarus, Gürcüstan, Niderland Krallığı və Şri-Lanka sərgidə milli stendlərlə iştirak edirlər. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikası, əkin-biçin aqreqatları, kənd təsərrüfatı məhsulları təqdim olunur.

Sərgilər Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), AZPROMO, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə keçirilir. Baş Nazir Novruz Məmmədov hər iki sərginin pavilyonları ilə tanış olub.

## "Bizim stabilliyimiz dünyaya nümunədir"



"Son günlərdə Azərbaycanda keçiriləcək olan futbol bayramına qarşı erməni lobbisi yenə qarayaxma kampaniyasına başlamaq istəyir. Onlar bir şeyi unutmasınlar ki, bizim stabilliyimiz dünyaya nümunədir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, hakim Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

Bizim dövlət həm öz vətəndaşlarının, həm də gələn qonaqların təhlükəsizliyinə qarant duracaq qədər güclüdür. Bunu Bakıda keçirilən birinci Avropa Oyunlarında, "Avroviziya" mahnı müsabiqəsində, İslam Həmrəyliyi Oyunlarında etməyə çalışdınız heçnə olmadı. Bir qram vicdan daşıyan kimsə ölkəmizin stabilliyi haqqında mənfi nəsə deyə bilməz. Bu, vicdansızlıqdır. O ki, qaldı erməni əsilli Henrikə, biz qəhrəman millətik, sizin kimi satqın və ya arxadan zərbə vuran deyilik. Biz müharibəni döyüş bölgəsində aparırıq. Aprel döyüşlərində bunun şahidi olduz axı?! Zamanı gələndə döyüşdə bir daha gücümüzü görəssiz. Qorxmaqda haqlısan amma Bakıda yox döyüş bölgəsində qorx"-deyə, S.Orucov fikrini tamamlayıb.

*Ceyhun Rasimoğlu*

## Bakıda Azərbaycan-Polşa biznes forumu keçiriləcək



Mayın 31-də Bakıda Azərbaycan-Polşa biznes forumu keçiriləcək. AZƏRTAC xəbər verir ki, Polşanın sərmayələr və ticarət üzrə Agentliyinin də təşkilatçılığı ilə keçiriləcək biznes forumda əsas məqsəd iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və intensivləşdirilməsidir. Forumun proqramı hər iki ölkənin biznes və investisiya imkanları haqqında çıxışlar və təqdimatlardan ibarətdir. Daha sonra iş adamlarının əczaçılıq, tibbi avadanlıq, kənd təsərrüfatı məhsulları, nəqliyyat sahəsi üzrə təkbətək görüşləri olacaq.

## Özbəkistanın "Mədəniyyət və mərifət" telekanalında Azərbaycan haqqında videoreportaj yayımlanıb

***Özbəkistanın "Mədəniyyət və mərifət" telekanalında Azərbaycan haqqında özbək dilində videoreportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, bu yaxınlarda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin ölkəmizə mediaturu təşkil olunub, onlar Bakını və regionlarımızı gəzib, videomateriallar hazırlayıblar.***



Telekanalın müxbiri Nazira Boymuradova reportajında Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycan haqqında məlumat verir. Jurnalist qeyd edir ki, paytaxt Bakıdakı binalarda da məhz Şərq və Qərb memarlıq ənənələri vəhdət təşkil edir. Reportajda qeyd olunur ki, Böyük İpək Yolu üzərində yerləşdiyindən Azərbaycanda elm, mədəniyyət və incəsənət sürətlə inkişaf edib. Azərbaycanın coğrafiyası haqqında ətraflı məlumat verən müəllif Bakının mərkəzində çəkilişlər aparıb, özbək və Azərbaycan xalqlarının əbədi dostluğu, tarixi, müştərək mədəniyyəti, bugünkü əlaqələrindən söhbət açıb.

İçərişəhərin tarixi haqqında danışan jurnalist bu məkanı Özbəkistandakı qədim Xivə şəhərindəki İçan Kala ilə müqayisə edir. Bildirilir ki, Qız Qalası İçərişəhərin dəniz tərəfdən qapısıdır. Turistlər İçərişəhərə adətən buradan və Qoşa Qala qapısından daxil olurlar. Hər iki qapıdan qədim şəhərə girərkən sanki əfsanəvi bir məkana düşürsən. Burada hər şey qədimlikdən xəbər verir. Qeyd olunur ki, İçərişəhərdə və Xivədəki İçan Kalada indi də insanlar yaşayırlar. Hər gün hər iki məkanda yüzlərlə turist görmək olar. Jurnalist İçərişəhəri qədim Səmərqənd və Buxara ilə müqayisə edir.

Reportajda Azərbaycan musiqisi, o cümlədən muğamlarımız haqqında da danışılır. Jurnalist "Şəhidlər xiyabanı" haqqında da tamaşaçılara məlumat verir, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarını fəda edən oğullar və qızlar haqqında söhbət açır. Tamaşaçılara Xəzər dənizi, Azərbaycanın iqtisadiyyatı, neft strategiyası barədə də ətraflı məlumat verilir. Reportajda maraq doğuran məqamlardan biri də odur ki, jurnalist yerli sakinlərlə birgə Azərbaycan mahnıları oxuyub, qutab bişirilməsi prosesində iştirak edib.

# Azad mətbuat və demokratik cəmiyyət

*Prezident İlham Əliyev: "Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir"*



***Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, bu gün həyatımızın bütün sahələrində olduğu kimi, mətbuatın azad fəaliyyəti və inkişafı sahəsində də, zəruri tədbirlər görülür. Mətbuatın azad fəaliyyəti və jurnalistlərin sosial-məişət məsələlərinin həlli dövlətin həyata keçirdiyi prioritet istiqamətlərdəndir. Ümumiyyətlə, reallıq budur ki, xalqımız tarixən sözə və sənətə bağlı olub. Xalqın söz və mətbuat azadlığının təmin olunması isə, XIX əsrin əvvəllərində, daha geniş xarakter almağa başlayıb. XIX əsrin 20-ci illərindən başlayaraq "Tiflisskiye vedomosti", "Zakavkazski vestnik", "Kavkaz", "Novoye obozreniye" və başqa qəzetlərdə Azərbaycan xalqının ədəbi həyatına aid yazılar əhəmiyyətli yer tuturdu. 1832-ci ildə Tiflisdə Azərbaycan dilində nəşr olunan belə qəzetlərdən biri də "Tiflis əxbarı" qəzeti idi. Lakin çarizmin ideoloji-siyasi təsiri altında olan bu qəzetlərin mövcudluğu ilə barışmayan Azərbaycan xalqı özünün milli mətbuatını yaratmaq üçün uzun illər mübarizə aparmalı olmuşdur.***

Məhz bu mübarizənin nəticəsi olaraq da, 1875-ci il iyulun 22-də görkəmli ziyalı Həsən bəy Zərdabinin təsisçiliyi və baş redaktorluğu ilə Azərbaycanın ilk mətbuat orqanı - "Əkinçi" qəzeti işıq üzü görmüşdür. Zərdabi və onun məsləkdaşları Azərbaycan xalqını gerilikdən çıxarmaq, cəhalət və mövhumata ağır zərbə vurmaq, yeniliyi təbliğ etmək kimi çətin vəzifəni üzərlərinə götürmüşdülər. "Əkinçi"nin səhifələrində xalqa zülm edən bəylər, mülkədarlar kəskin tənqid edilir, insanların elm, təhsil, savad almaları, maariflənmələrinin vacibliyi geniş təbliğ edilirdi. Buna görə də, qəzet çarizmin aşkar təzyiq və təhdidləri ilə üzləşir, çapına ciddi maneələr törədilirdi. Bu təzyiqlərin şiddətlənməsi nəticəsində, Həsən bəy Zərdabi 1877-ci ildə "Əkinçi"nin nəşrini dayandırmalı oldu. Görkəmli ziyalı 1905-ci ildə "Həyat" qəzetində çap etdirdiyi "Rusiyada əvvəlinci türk qəzeti" adlı məqaləsində "Əkinçi"ni nə məqsədlə nəşr etdiyini, qarşıya çıxan çətinlikləri, çar senzurasının təqiblərini açıb göstərmişdir. XIX əsrin sonları, XX əsrin əvvəllərində Bakıda çap olunan "Kaspi", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Şərqi-Rus", "Bakinski listok", "Bakinskiye izvestiya", "Vozrojdeniye", "Hümmət", "Həyat", "Füyuzat", "Təzə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik", "Dəvət-Qoç" qəzetləri, habelə, "Molla Nəsrəddin" jurnalı da Azərbaycanda mütərəqqi mətbuat ənənələrinin formalaşmasında, azad sözün, müstəqil düşüncənin inkişafında mühüm rol oynamışdır. XX əsrin əvvəllərində Azərbaycan jurnalistləri demokratik mətbuatın mütərəqqi ənənələrini böyük müvəffəqiyyətlə inkişaf etdirirdilər. C.Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Seyid Hüseyn, Əli Nəzmi, Əliqulu Qəmküsar, Ü.Hacıbəyli, M.Şaxtaxtinski, M.S.Ordubadi və başqaları milli düşüncə və ideyaların təbliği və demokratik dəyərlərin möhkəmlənməsi yönümündə fəal təbliğat aparırdılar. Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində mətbuatın formalaşma və inkişaf yolu heç də rəvan olmamışdır. 1991-ci il 18 oktyabr tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nda vətəndaşların söz, fikir, mətbuat azadlıqları təsbit edilsə də, müstəqilliyin ilk illərində müəyyən obyektiv və subyektiv səbəblər üzündən ölkənin yeni formalaşan mətbuat orqanları ciddi məhrumiyyətlərlə və çətinliklərlə üzləşmişlər. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın inkişaf tarixində də yeni bir mərhələnin əsasını qoydu.

## "Mətbuat cəmiyyətin güzgüsüdür"

Azərbaycan xalqının Ümummilli Lideri, dövlətimizin qurucusu və memarı Heydər Əliyevin müəllifliyi ilə hazırlanan və qəbul edilən ilk Konstitusiyanın 46-cı və 50-ci maddələrində ölkə vətəndaşlarının söz, məlumat toplamaq, öz rəyini sərbəst ifadə etmək hüquqları təsbit olunub. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən, Azərbaycanda kütləvi informasiya vasitələri azaddır. Bu azadlıq ölkə vətəndaşlarının qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən verilən təminata əsaslanır. Qanunvericiliyə əsasən, kütləvi informasiya vasitələrinin təsis olunması, onlara sahiblik, onların idarə edilməsi, onlardan istifadə, qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, məhdudlaşdırıla bilməz. Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik aktlarında informasiya azadlığı və onun təmin olunması dövlətimizin ali məqsədlərindəndir. Fikir və söz azadlığı məlumat azadlığı ilə üzvi surətdə bağlıdır. Məlumat azadlığının tərkib hissəsi isə informasiya əldə etmək hüququdur. Ulu Öndər Heydər Əliyev müstəqil mətbuatın inkişafını demokratiyanın tələbi kimi dəyərləndirərək bu sahəyə diqqətini əsirgəmədi. Belə ki, milli və bəşəri dəyərləri rəhbər tutan Azərbaycan mətbuatı, demokratiya və aşkarlığın mühüm vasitəsi kimi, xalqımıza öz ali məqsədlərini həyata keçirmək yolunda bələdçi olub və müstəsna xidmətlər göstərib. "Mətbuat cəmiyyətin güzgüsüdür" çağırışı Ulu Öndərin ən çox dəyər verdiyi ifadələrdən idi. Əsl və peşəkar jurnalistlərdən əsas tələbi də bu idi ki, heç vaxt, heç bir ləkə bu güzgünün təmizliyinə və saflığına ləkə gətirməsin. Humanist olduğu qədər ədalətsizliyə, əsası olmayan saxta informasiyalara, böhtan və yalanlara qarşı barışmaz olan Ulu Öndər Heydər Əliyevin mübarizliyi, bu sahədə də, özünü büruzə verirdi. Söz və mətbuat azadlığının inkişafına əngəl olan, süni maneələrin aradan qaldırılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsini təmin etdi, vətəndaş cəmiyyətinin quruculuğunu özünün inkişaf modeli seçən Azərbaycanda KİV-lərin rolunun artırılmasını başlıca məqsəd kimi qarşıya qoydu. "Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq vermək, söz azadlığını daha geniş təmin etmək, Azərbaycanda demokratiyanı bütün sahələr üzrə inkişaf etdirməkdən ibarətdir" söyləməklə açıq sözün, həqiqəti əks etdirən informasiyaların tərəfdarı və mətbuat azadlığının qarantı olduğunu bəyan edirdi. Ümummilli Lider Heydər Əliyev jurnalistləri dövlət mükafatları, orden və medallarla təltif etməklə bildirirdi ki, KİV-lərə qayğı davamlı və sistemlidir. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", həmçinin, 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman ölkəmizdə söz, mətbuat və fikir azadlıqlarının təminatına əlverişli şərait yaratmış, Müstəqil Dövlətlər Birliyi məkanında, ilk dəfə olaraq, Azərbaycanda senzura ləğv olunmuşdur. Ulu Öndər Heydər Əliyevin 2000-ci il 6 mart tarixli Sərəncamı ilə təsdiq edilən "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" isə bu sahənin maddi-texniki bazasının gücləndirilməsində mühüm rol oynamışdır. "Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir" deyən Ulu Öndər Heydər Əliyev azad mətbuatın inkişafına diqqət göstərərək, uğurlu nəticələrə nail olmuşdur. Ulu Öndər Heydər Əliyev Azərbaycanda milli mətbuatın daha da inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə, 2002-ci ildə "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür.

## Zəngin tarixi və mütərəqqi ənənələri olan Azərbaycan mətbuatı

Bu gün Ulu Öndər Heydər Əliyevin mətbuat və söz azadlığı sahəsindəki mütərəqqi siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti demişdir: "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir". Ulu Öndər Heydər Əliyev siyasi kursunun uğurlu davamçısı Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən azad mətbuatın inkişafına yönəlmiş bu siyasətə sadiq olduğunu atdığı addımları ilə təsdiqlədi. "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası" buna əyani sübutdur. "Söz və mətbuat azadlığı demokratik cəmiyyətin prioritet dəyərlərindən biridir. Zəngin tarixi və mütərəqqi ənənələri olan Azərbaycan mətbuatı ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda demokratiya və siyasi plüralizmin mühüm vasitəsi kimi çıxış edir. Cəmiyyətdə aşkarlığın və şəffaflığın təmin edilməsində, aktual ictimai problemlərin ümumxalq müzakirəsinə çıxarılmasında, sosial ədalət prinsiplərinin müdafiəsində Azərbaycan mətbuatının rolu xüsusi qeyd olunmalıdır" deyən Prezident İlham Əliyevin bu fikirləri dövlət başçısının ölkəmizdə mətbuat azadlığının ən böyük təminatçısı olduğunu bir daha nümayiş etdirir. Ölkə Prezidenti İlham Əliyevin Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin yanında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Fondunun yaradılması, Nizamnaməsinin təsdiq edilməsi də mətbuatın inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Milli mətbuatımızın 135 illiyinin ölkəmizdə dövlət səviyyəsində qeyd olunması, jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması, fəxri adlarla təltif olunmaları haqqında sərəncamların imzalanması və bu kimi biri-birindən əhəmiyyətli addımlar qeyd etdiklərimizin təsdiqidir. Milli mətbuatımızın 138 illiyində jurnalistlər üçün tikilmiş binanın istifadəyə verilməsi, eyni zamanda, "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" növbəti Sərəncamın imzalanması, mətbuatın yaradılmasının 140 illiyi münasibəti ilə onlarla jurnalistin Prezident İlham Əliyevin Sərəncamı ilə dövlətin orden və medallarla, fəxri fərmanlarla təltif edilməsi mətbuatın inkişafına, jurnalistlərin əməyinə verilən qiymətin davamlılığının nəticəsidir. Söz yox ki, əsası qoyulan ənənə, bundan sonra da davam etdiriləcək və mətbuat tarixinə yeni uğurlar və nailiyyətlər yazılacaq.

***İ.ƏLİYEV***

# Yeni Azərbaycan Partiyasına ümumxalq etimadı tükənməzdir

## *Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 280 əməkdaşı YAP sıralarına daxil olmaq üçün müraciət edib*

***1992-ci il noyabrın 21-də müxalifət partiyası kimi 550 nəfərin iştirakı ilə təsis konfransını keçirən Yeni Azərbaycan Partiyasının qısa müddətdə iqtidara gəlməsi YAP-a, onun yaradıcısı və qurucusu ulu öndər Heydər Əliyevə ümumxalq ehtiramı və inamının nəticəsi idi.***





Ulu öndər Heydər Əliyevin Azərbaycanın iqtisadi inkişafı, ölkədə sabitliyin, tərəqqinin, təminatı üçün göstərdiyi fədakarlıqlardan söz açan Tağı Əhmədov bildirdi ki, YAP-ın kəmiyyət və keyfiyyətcə yenilənməsi, möhkəmlənməsi partiyamıza ümumxalq rəğbətinin və sonsuz inamının təcəssümüdür:

- Azərbaycanda gedən ictimai-siyasi proseslərdə formalaşan, mütəşəkkil təşkilat kimi böyük nüfuz qazanan YAP xalqına, Vətəninə, millətinə xidmət etmək istəyən insanların partiyası olduğunu artıq ölkəmizi dünyada tanıtmaqla təsdiqləyib. Proqram və Nizamnaməsi Azərbaycan xalqının istək və arzularını əks etdirən partiya üzvlərinin sayının artması ulu öndər Heydər Əliyev ideyalarına sadiqlik olmaqla, Prezident, YAP Sədri İlham Əliyevə tükənməz etimadın ifadəsidir. Respublikamızda keçirilən prezident, parlament, bələdiyyə seçkilərində insanların YAP-a, bu partiyanın namizədlərinə etimadı həmişə yüksək olub.

Bu gün üzvlərinin sayı 800 minə yaxınlaşan partiyanın ikinci qurultayındakı çıxışında "Bizim partiyaya üzv olan adamlar, bizim partiyaya qoşulmaq istəyənlər, bizim partiyaya gələn adamlar ancaq və ancaq öz qəlbinin, öz zehninin hökmü ilə gəlməlidirlər, öz könlü ilə gəlməlidirlər. Bilməlidirlər ki, bu partiya onun bütün arzu və istəklərinə cavab verən partiyadır" söyləyən ümummilli lider Heydər Əliyev bildirirdi ki, bu partiyanın yaradılması ilə Azərbaycanda yeni bir demokratik sistem formalaşır: "Əsas vəzifəmiz isə Azərbaycanın dövlət quruculuğudur. Azərbaycanda keçirilən islahatlardır- siyasi, iqtisadi, sosial və başqa islahatlardır".

Dünən Akadkemik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında keçirilən tədbir sübut etdi ki, Ulu Öndərin ideyalarını davam etdirən YAP həqiqi mənada xalqın, milyonların partiyasıdır.

Xəstəxananın baş həkimi Telman İbadov bildirdi ki, respublikada aparılan geniş miqyaslı islahatlar, quruculuq işləri səhiyyə sistemində də əsaslı dönüş yaratmış, yeni xəstəxanalar istifadəyə verilmiş, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun ən müasir tibbi avadanlıq və preparatlarla təmin edilmişdir:

- Xəstəxanamız son illərdə əsaslı surətdə təmir olunmuş, müxtəlif korpuslarda müalicə olunan xəstələrə diqqət və qayğı artırılmışdır. Ən təcrübəli həkimlərdən və tibb işçilərindən ibarət kollektivimiz Azərbaycanda səhiyyənin inkişafına göstərilən diqqət və qayğı üçün dövlət başçımız, YAP Sədri İlham Əliyevə minnətdarlığını fəaliyyətləri ilə bildirir. Bu qayğını layiqli işləri ilə doğrultmağa çalışan çoxsaylı həkimlərimiz, tibb işçilərimiz içdikləri Hippokrat andına sadiqdirlər. Bu gün onlardan 280 nəfər YAP sıralarına daxil olmaq üçün ərizə ilə partiyanın Yasamal rayon təşkilatının xəstəxanadakı ərazi ilk təşkilatına müraciət etmişlər.

YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov bildirdi ki, 1992-ci ildə adları tarixə "91-lər" kimi yazılan vətənpərvər ziyalıların müraciətinə cavab verən ulu öndər Heydər Əliyev bu partiyanı yaratmaqla Azərbaycanda demokratik təsisatların əsasını qoydu, milli müstəqilliyimizi əbədiləşdirdi.

"Dünya birliyində böyük nüfuz qazanan Azərbaycanın inkişafı beynəlxalq təşkilatlarda nümunə göstərilirsə , bu uğurlarda YAP üzvlərinin xidmətləri böyükdür" sözləri ilə çıxışını davam etdirən Tağı Əhmədov vurğuladı ki, ölkəmizdə ən mötəbər beynəlxalq simpoziumların, forumların, dünya ictimaiyyətinin diqqətində olan idman yarışlarının təşkili Ulu Öndərin görmək istədiyi Azərbaycanın dünyaya təqdimatıdır:

-Respublikamızda əldə edilmiş bütün uğurlarda Yeni Azərbaycan Partiyasının rolu və xidmətlərinin xalq tərəfindən qiymətləndirilməsi siyasi kampaniyalarda YAP-ın qazandığı uğurlardır. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi məsuliyyətini hiss edir, avanqard rolunu fəaliyyəti, təşəbbüsləri ilə doğruldur. Partiyamızın üzvləri müxtəlif sahələrdə nümunə göstərərək ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası regionda, dünya miqyasında tanınan, böyük nüfuz qazanan güclü, vahid, siyasi təşkilatdır. Beynəlxalq əlaqələri genişlənən partiyamız dövlət siyasətimizin əsasını təşkil edən qarşılıqlı əməkdaşlıq prinsipini fəaliyyətinin başlıca amili kimi daim diqqətdə saxlayır. Bütün Azərbaycan xalqında partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var. Bu gün 280 nəfərin partiyamızın sıralarına daxil olmaq istəyi YAP-a, ulu öndər Heydər Əliyev siyasətinin davamına ümumxalq inamının, etimadının nümunəsidir.

Tədbirdə Yeni Azərbaycan Partiyasına daxil olmaq istəyənlərin müraciətləri nəzərə alındı. Belə bir inam ifadə olundu ki, onlar YAP üzvü kimi də etimadı layiqli işləri ilə doğruldacaqlar.

# "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması dövlətin strateji xəttidir"



"Bəzi maraqlı dairələr, o cümlədən müxalifət Azərbaycanda hakimiyyət və onun apardığı siyasət barəsində cəmiyyətdə yanlış rəy formalaşdırmağa çalışır, onlar Azərbaycanla Aİ arasında imzalanması gözlənilən Strateji Tərəfdaşlıq Haqqında saziş barəsində yalan məlumatlar yayırlar". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.

O bildirib ki, Brüsseldə keçirilən sammitdə Avropa İttifaqı ilə Azərbaycan arasında sazişin imzalanması əvvəlcədən nəzərdə tutulmayıb: "Kimlərinsə Azərbaycanın guya orada sazişə imza atmaması barədə ortaya Azərbaycan Aİ arasında imzalanacaq saziş üzərində işlərin getdiyini deyən deputat söyləyib ki, sənəddə əks olunan məsələlərlə bağlı tərəflər ortaq məxrəcə gəlmək üçün səy göstərirlər: "Bu baxımdan da kiminsə hansısa fikir söyləməsi yalnız o şəxsin subyektiv düşüncəsi kimi qəbul edilə bilər. Qeyd olunan sənəd həm Azərbaycanın, həm də Avropa İttifaqının maraqlarına, eləcə də beynəlxalq hüquq normalarına uyğun olaraq tərtib edilməlidir. Ona görə də hazırda bu sənəd üzərində iş gedir. Zamanı gələndə hər iki tərəfin razılaşdırdığı sazişin özü və imzalanacağı tarix cəmiyyətə təqdim olunacaq".

A.Mirzəzadə qeyd edib ki, imzalanacaq saziş təkcə Azərbaycana lazım deyil: "Həmin sənəd Azərbaycana nə qədər lazımdırsa, Avropaya da bir o qədər lazımdır. Şərq Tərəfdaşlığı Proqramında iştirak edən ölkələr arasında Azərbaycan yeganə ölkədir ki, konkret olaraq Avropadan ona heç nə lazım deyil. Azərbaycan öz potensialına, səylərinə arxalanaraq problemlərini həll etmək iqtidarındadır".

Deputat əlavə edib ki, Azərbaycanda daha demokratik, daha sivil dövlət quruculuğu istiqamətində də addımlar atılır, islahatçılıq gündəlik atmosferə çevrilir, insanların sosial-rifah halının daim yaxşılaşdırılması üçün işlər görülür: "Müstəqilliyimizin qorunması bizim üçün vacib məsələdir. Ərazi bütövlüyümüzün təmin olunması Azərbaycan dövlətinin strateji xəttidir. Ona görə də Azərbaycanı Avropa İttifaqı ilə imzalanacaq sazişdən asılı bir dövlət kimi təsəvvür etmək öz ölkəsinə hörmətsizlik etməkdən başqa bir şey deyil. Bir qədər əvvəl qeyd etdiyim kimi, hələlik saziş üzərində iş gedir. Bu saziş imzalanan zaman orada Azərbaycanın ərazi bütövlüyü, hər iki tərəfin əməkdaşlıq əlaqələrinə və maraqlarına cavab verəcək şərtlər mütləq şəkildə öz əksini tapacaq, təsdiq olunacaq".

**Nailə Məhərrəmova**

# "Diario Feminista": Mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumu daha ədalətli və bərabərhüquqlu cəmiyyət yaradılmasına töhfə verir

İspaniyada çıxan gündəlik "Diario Feminista" nəşrində Mar Xoanperenin "Mədəniyyətlərarası dialoq vasitəsilə daha təhlükəsiz dünya" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, material Bakıda keçirilmiş Mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumuna həsr edilib.


Un mundo mas pacífico a través del diálogo intercultural

PORTADA MAYO 15, 20

unsplash

Estos días se celebra en Bakú, la capital de Azerbaiyán, El Foro Mundial sobre Diálogo Intercultural, centrado en la promoción de la paz a través del diálogo intercultural e

Məqalə müəllifi qeyd edir ki, ümumdünya forumunun işində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dəvət edilmiş 500-ə yaxın nümayəndə - beynəlxalq təşkilatların və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, dini liderlər və tədqiqatçılar iştirak edib. Bakı forumunun məqsədi mədəniyyətlərarası və beynəlxalq dialoq vasitəsilə sülhü möhkəmlətməkdir.

Məqalədə diqqətə çatdırılır ki, forumda mədəniyyətlərarası dialoq üçün məkan yaradılması təşəbbüsü irəli sürülüb. Məsələn, Şri-Lankadan olan Neluni Tillekeratnenin çalışdığı Gənclər hərəkatı müxtəlif icmalardan olan insanların barışmasına, birləşməsinə, habelə başqa mədəniyyətlərə hörmətin təşviqinə xidmət edir. Mar Xoanpere qeyd edir ki, Bakı forumunda iştirak etmiş din xadimlərinin bir qismi başqa mədəniyyətlərə və ya dinlərə mənsub qruplar tərəfindən hücumlara məruz qalıblar. Onlar mədəniyyətlərarası nifrət məsələsinə xüsusi diqqət yetirərək, mərhəmətli və dözümlü olmağa çağırıblar.

Məqalədə vurğulanır ki, Mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumu qəbilindən olan tədbirlər müxtəlif qitələrdə yaşayan insanlar və qruplar arasında səmimiyyətə, qarşılıqlı anlaşmaya əsaslanan fikir mübadiləsi üçün daha ədalətli və bərabərhüquqlu cəmiyyət yaradılmasına töhfə verir.

# Azərbaycanla Belarusun idxal-ixrac əməliyyatlarının həcmi 82 milyon dolları ötüb



Bu ilin yanvar-aprel aylarında Azərbaycan ilə Belarus arasında idxal-ixrac əməliyyatlarının həcmi 82 milyon ABŞ dollarını ötüb. Bu barədə AZƏRTAC-a Belarus Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilir ki, hesabat dövründə Belarusdan ölkəmizə idxalın dəyəri 74,4 milyon dollar, Azərbaycandan bu ölkəyə ixracın həcmi isə 8,1 milyon dollar olub.

Qeyd edək ki, ötən il Azərbaycanla Belarus arasında ticarət dövriyyəsinin həcmi 204 milyon dollar təşkil edib ki, bu da 2017-ci ilin göstəricisindən təxminən 56 milyon dollar çoxdur.

# Xaricdə yaşayan bəzi radikal şəxslərin peşmançılığı Azərbaycan cəmiyyətindəki ictimai qınağın öz hədəfinə çatdığını sübut edir

*Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin yap.org.az-a müsahibəsi*

***- Əli müəllim, bu günlərdə radikal müxalifətin Avropada yaşayan bəzi nümayəndələri tərəfindən müəyyən etiraflar, xüsusilə də Azərbaycanın dövlət başçısına qarşı fəaliyyətlərindən peşmançılıq ifadə edən bəyanatlar səslənməkdədir. Vaxtilə radikal mövqedən çıxış edən şəxslərin birdənbirə mövqe dəyişikliyi nümayiş etdirmələrinin səbəbləri barədə fikirlərinizi bilmək istərdik.***

- Biz bu prosesləri pozitiv, müsbət hadisə kimi qarşılayırıq. Belə ki, əgər Azərbaycandan kənarda olan və özlərini "mühacir" adlandıran bəzi şəxslər də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin Azərbaycan xalqına, onun maraqlarına birbaşa xidmət etdiyini başa düşür və bu baxımdan fikirlərində dəyişiklik edirlərsə, bu, müsbət haldır. Bu proses Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına və onun daha da möhkəmlənməsinə xidmət edir. Həmçinin bu proses onu göstərir ki, fərqli fikirlərə, qarşıdurmaya baxmayaraq, müəyyən zaman keçdikdən sonra haqq-ədalət öz yerini tapır.



Bu kontekstdən çıxış edərək demək mümkündür ki, bəzi radikal şəxslərin peşmançılığı, dövlət başçısından üzr istəməsi və etirafları Azərbaycan cəmiyyətində uzun müddətdir davam edən ictimai qınağın öz hədəfinə çatdığını sübut edir. Ümumiyyətlə, birdənbirə və ya hansı səbəbdən baş verməsindən asılı olmayaraq, bəzi şəxslərin Azərbaycanın, onun dövlət başçısının əleyhinə olan mövqelərində dəyişiklik etməsi proseslərini müsbət dəyərləndiririk.

***- Peşmançılıq keçirən həmin şəxslərdən biri axırıncı bəyanatlarında Azərbaycana qayıtmaq, burada fəaliyyət göstərmək ehtimalını istisna etmir. Buna münasibətiniz necədir?***

- Ümumiyyətlə götürəndə, istər həmin şəxs, istərsə də indiyə qədər xaricdə yaşayan digər biri Azərbaycana qayıtmaq istəyirsə, bu mümkündür. Yəni, Azərbaycanda bütün vətəndaşlarımız üçün yaşamaq, işləmək üçün şərait var. Bir çox vətəndaşımız bəzən təhsil almaq, bəzən də işləmək üçün xarici ölkələrə üz tutur. Xaricdə yaşayan çoxlu soydaşlarımız var ki, onlar zaman-zaman Azərbaycana qayıdır, öz bilik və bacarıqlarını burada tətbiq edirlər. Yəni Azərbaycana qayıtmaq, həmçinin Azərbaycandan getmək azad şəkildə həyata keçən proseslərdir.

***- Əli müəllim, bu günlərdə Azərbaycanın Prezidenti İlham Əliyevin Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının 10 illiyinin qeyd olunması tədbirləri çərçivəsində Brüsselə uğurlu səfəri baş tutdu. Bu proseslərin fonunda bəzi antimilli qüvvələrin təxribat cəhdi də oldu. Xaricdəki bəzi radikalların peşmançılıq prosesi fonunda bu cür hərəkətləri necə qiymətləndirmək olar?***

- Cənab Prezidentin Brüsselə sonuncu səfərini mütləq şəkildə uğurlu adlandırmaq olar. Ona görə ki, Azərbaycan regionun sürətli inkişafı ilə seçilən müstəqil dövləti kimi Avropa İttifaqı ilə qarşılıqlı sıx iqtisadi, siyasi və mədəni münasibətlərə malikdir, Avropanın enerji təhlükəsizliyinə ciddi töhfə verir. Təbii ki, Azərbaycan Cənubi Qafqazın qüdrətli dövləti olduğuna görə Azərbaycanın dövlət başçısı da Brüsseldə Avropa İttifaqı rəhbərləri tərəfindən çox böyük hörmətlə qarşılanıb, səmərəli görüşlər baş tutub. Bu görüşlər bir daha sübut etdi ki, bəzi üzdəniraqların neqativ davranışları Azərbaycan Prezidentinin və ölkəmizin nüfuzuna heç bir xələl gətirə bilməz.

Bu hadisə, bir-iki antimilli şəxsin mənəvi-əxlaqi durumunun ən aşağı səviyyədə olmasının bir daha açıq şəkildə nümayiş etdirilməsidir. Çünki Azərbaycan Prezidenti ölkəmizdən kənara səfərlər zamanı Azərbaycan xalqını, dövlətimizi təmsil edir. Belə bir qeyri-etik və heç bir tərbiyəyə sığmayan davranış bütövlükdə həm Azərbaycan cəmiyyətində, həm də Avropada, o cümlədən Brüsseldə yaşayan soydaşlarımız tərəfindən kəskin şəkildə qınanılmaqdadır.

***- Ümumiyyətlə götürəndə, belə demək mümkündür ki, xaricdə yaşayan soydaşlarımız, o cümlədən Avropadakı Azərbaycan diasporunun əksər üzvləri Azərbaycan Respublikasının, onun dövlət başçısının yürütdüyü xarici siyasəti tam dəstəkləyir.***

- Əlbəttə, birmənalı olaraq deyə bilərik ki, Avropadakı Azəbaycan diasporu həmişə dövlət başçısının Azərbaycan dövlətinin, xalqının maraqlarına uyğun şəkildə apardığı uğurlu və praqmatik siyasətə dəstək verir. Həmçinin xaricdə yaşayan soydaşlarımız, diaspor nümayəndələrimiz Azərbaycan Prezidentinin siyasətini dəstəkləyirlər, Onunla həmrəydirlər və diaspor qurumları tərəfindən vaxtaşırı keçirilən tədbirlər də bunun bariz nümunəsidir. Üç-beş nəfər təxribatçının sonuncu qeyri-etik davranışına gəlincə, onlar heç bir halda Avropada yaşayan əksər soydaşlarımızı, diasporumuzu təmsil etmirlər. Əksinə onlar xaricdə Azərbaycanın əleyhinə fəaliyyət göstərən xüsusi dairələr və erməni lobbisi tərəfindən maliyyələşdirilən dəstənin üzvləridir.




# YAP Səbail rayon təşkilatı idarə heyətinin növbəti iclası keçirilib

Mayın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Yeni Azərbaycan Partiyasının yaradıcısı ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun yaradılmasının 15 illik yubileyi ilə əlaqədar keçirilmiş tədbirlər haqqında məlumat verilib.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Ulu Öndərin anadan olmasının 96-cı ildönümü və Yeni Azərbaycan Partiyasının yaradılmasının 15 illiyi münasibətilə YAP Səbail Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən elmi-praktik konfranslar və dəyirmi masalar və həmin tədbirlərin materialları əsasında hazırlanan "Müstəqil Azərbaycan dövlətinin qurucusu" kitabı haqqında söhbət açıb. Bildirib ki, bu kitab Ulu Öndərin ali amallara xidmət edən şərəfli, eyni zamanda, çətin və bənzərsiz həyat yolunun, zəngin dövlətçilik irsinin, eləcə də müstəqilliyinin ilk illərindən bu günə qədər respublikamızın ictimai-siyasi həyatında baş verən proseslərdə xüsusi yeri və rolu olan Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin öyrənilməsi üçün politoloqlar, tarixçilər, analitiklər, gənc siyasətçilər və tələbələr üçün mühüm mənbə olacaq. O, əminliyini ifadə edib ki, bu dahi şəxsiyyətin, görkəmli dövlət xadiminin və dünya miqyaslı nəhəng siyasətçinin zəngin irsini dərindən araşdırmaq, onun təkrarolunmaz dövlətçilik təcrübəsindən bəhrələnmək və gənc nəsillərimizi bu ruhda tərbiyə etmək nəinki bu günümüz, eləcə də gələcəyimiz üçün mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, müasir Azərbaycan dövlətçiliyinin ən çətin, mürəkkəb və ziddiyyətli dövründə yaranmış, Azərbaycan xalqının taleyində əvəzolunmaz rol oynayan Yeni Azərbaycan Partiyasının son 25 il ərzində keçdiyi şərəfli yol, aparılan çətin mübarizələr və qazanılmış qələbələr kitabda yer alan məqalələrdə geniş şəkildə təhlil olunub. YAP Azərbaycan cəmiyyətinə sivil siyasi mədəniyyət, siyasi mübarizə nümunəsi və demokratiya gətirib.

Tədbirdə YAP Səbail rayon nəzarət-təftiş qrupunun bir sıra ərazi ilk partiya təşkilatlarında apardığı yoxlamaların nəticələri və görülmüş işlər haqqında məlumatlar iclas iştirakçılarının diqqətinə çatdırılıb. İclas çıxışlarla davam edib.

# Heydər Əliyev Beynəlxalq Aeroportu Bakıda UEFA Avropa Liqası Finalının keçiriləcəyi dövr üçün xüsusi tədbirlər planı hazırlayıb



Bakıda UEFA Avropa Liqası Finalının keçiriləcəyi dövr üçün Heydər Əliyev Beynəlxalq Aeroportu çox sayda təyyarə və sərnişinləri qəbul etmək məqsədilə xüsusi tədbirlər planı hazırlayıb. Bakının hava limanının bütün xidmətləri gücləndirilmiş rejimdə fəaliyyət göstərəcək. Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aeroportun buraxılış qabiliyyəti saatda 10 min sərnişin təşkil edir və bununla da əlaqədar olaraq, heç bir aviaşirkətə müntəzəm və çarter reyslərini yerinə yetirməyə rədd cavabı verilməyəcək.

Hazırda Heydər Əliyev Beynəlxalq Aeroportu mayın 28-də və 29-da çarter reyslərinin yerinə yetirilməsi üçün 45-dən çox müraciəti təsdiqləyib. Buraya, həmçinin 16 biznes aviasiya reysi daxildir, 2 aviareys ilə futbol komandaları və 10 reys ilə klubların fanatları gətiriləcək. Həmçinin "Türk Hava Yolları", "Air Arabia", "Fly Dubai", "ISRair", "Jazeera Airways" və sair kimi xarici aviaşirkətlər əlavə uçuşlar yerinə yetirmək üçün müraciət ediblər. Finalın keçiriləcəyi dövrdə Heydər Əliyev Beynəlxalq Aeroportunda bütün reyslərin manevsiz yerinə yetirilməsi və terminaldan çox sayda sərnişinin rahat keçməsi üçün bütün şərait yaradılacaq.

# Gürcüstanın nüfuzlu Sputnik-Georgia portalı Bakıdakı beynəlxalq sərgilər barədə məlumat yayıb



Gürcüstanın rus və gürcü dillərində yayımlanan nüfuzlu "sputnik-georgia.ru" saytı mayın 15-də Bakı Ekspo Mərkəzində keçirilən XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi - "WorldFood Azerbaijan" və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri və Prezident İlham Əliyevin bu tədbirlərdəki iştirakı ilə bağlı geniş material yayıb.

AZƏRTAC xəbər verir ki, materialda sərginin əhəmiyyəti yüksək qiymətləndirilir və Gürcüstanın müxtəlif məhsullar, o cümlədən spirtli içkilər təqdim edən 11 şirkətinin bu tədbirlərdə iştirakı qeyd olunur.

Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstan şirkətlərinin məhsulları ilə tanış olduğu və dövlətimizin başçısına Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinin hədiyyə edildiyi xüsusi qeyd edilir. Materialın tam mətni ilə bu linkdən tanış ola bilərsiniz: https://sputnik-georgia.ru/georgia/20190516/245257952/Alievu-podarili-eksklyuzivnoe-izdanie-Vityazya-v-tigrovoy-shkure.html

GƏNCLİYİN SƏSİ

# Gənclərin ictimai həyatda fəallığı artır

***“Gənc nəsil onun qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün bütün gücünü səfərbər edib”. Bu fikri “Səs” qəzetinə açıqlamasında Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tələbəsi Yeganə Cavadova bildirib.***

O, qeyd edib ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir: “Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Bu gün Cənab Prezident tərəfindən həyata keçirilən gənclər siyasəti yeni mərhələsini yaşayır. Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf təbii ki, gənclər üçün yeni imkanlar açır. Azərbaycan Prezidenti İlham Əliyevin “I və II dərəcə əlilliyi olan şəxslərin, habelə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında” Sərəncamı I və II dərəcə əlilliyi olan



şəxslərin, habelə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsilə əlçatanlığını təmin etmək və onların təhsil almaq imkanlarını genişləndirmək məqsədini özündə ehtiva edir. Bundan başqa, dövlət başçısı doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Sərəncam imzalamışdır. Sərəncam nəticəsində, tələbələrin təqaüdlərinin artırılması nəticəsində, onlarda stimul yaranmışdır”.

Qloballaşma prosesi və mədəniyyət arasında fərqlərin sürətlə aradan qalxdığı, milli identikliyin qorunmasının xeyli mürəkkəbləşdiyi indiki dövrdə gənc nəslin narkomaniya, alkoqolizm və digər mənfi təsirlərdən uzaq qalması, infeksion və qeyri-infeksion xəstəliklərdən müdafiəsi, psixoaktiv maddələrin qəbulunun qarşısının alınması həyati vacib bir məsələ kimi qarşıya çıxır. Y.Cavadova bu məqsədlə müvafiq dövlət qurumları qarşısında maarifləndirmə tədbirlərinin aparılması ilə bağlı vəzifələr qoyulduğunu diqqətə çatdırıb. Mühüm istiqamətlərdən biri də sosial müdafiəyə ehtiyacı olan gənclərin səhiyyə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsidir. Onun sözlərinə görə, bundan başqa, bu kateqoriyadan olan gənclərin mədəni-kütləvi idman tədbirlərinə cəlb edilməsi gənclərə diqqət və qayğının təzahürüdür: “Son zamanlar təkcə paytaxtda deyil, regionda yaşayan gənclərin məşğulluq məsələlərinə xüsusi həssaslıq göstərilir. Dövlət strukturları istedadlı gənclərin üzə çıxarılması, habelə, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə yardımların göstərilməsi ilə bağlı bir sıra tədbirlər görməkdədir. Bu sahədə yardım yalnız maddi xarakter daşımır, gənclər üçün peşə məsləhətlərinə və karyera inkişafına dair metodiki vəsaitlərin hazırlanması və məsləhət xidmətlərinin təşkili də məşğulluq problemlərinin həllində özünəməxsus rol oynayır”.

Y.Cavadova gənclərlə iş sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi və gənclər siyasətinin həyata keçirilməsinin səmərəliliyinin artırılması üçün mühüm tədbirlər görüldüyünü, gənclərin geniş fəaliyyət azadlığının təmin olunuğunu da bildirdi. Ölkə gəncləri də vətən və dövlət qarşısındakı məsuliyyətini lazımınca dərk edərək, bu imkanlardan bacarıqla yararlanırlar.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycan dövləti gənclərə yüksək diqqət və qayğı göstərir

## *YAP Mingəçevir şəhər təşkilatının gənclər birliyinin V konfransı keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyası Mingəçevir şəhər təşkilatı gənclər birliyinin V konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər.***



Tədbiri giriş sözü ilə açan YAP Mingəçevir şəhər təşkilatı gənclər birliyinin sədri Bəxtiyar Mustafayev, IV konfransdan ötən müddət ərzində, görülən işlər barədə hesabat məruzəsi ilə çıxış edib.

Sonra konfrans iştirakçılarından Emin Paşayev, Eldar Dərişov, Elgiz Mirzəyev hesabat məruzəsi ətrafında çıxış edərək, görülmüş işləri qənaətbəxş qiymətləndiriblər.

Konfransda çıxış edən YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov şəhər təşkilatının, ötən illər ərzində, gördüyü işlərdən, həyata keçirdiyi tədbirlərdən danışıb və bu tədbirlərdə, xüsusən, gənclərin aktiv fəaliyyətini müsbət qiymətləndirib.

Konfransda çıxış edən Mingəçevir şəhər İH-in başçısı İlham İsmayılov bildirib ki, Azərbaysan gəncliyi ölkəmizin inkişafı prosesində və uğurların qazanılmasında fəal iştirak edir: “Mingəçevir şəhərində quruculuq işlərində də gənclər, o cümlədən, YAP-ın üzvü olan gənclər yaxından iştirak edirlər”.

YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxışında Azərbaycan gəncliyinin potensial imkanlarının ortaya qoyulması üçün dövlətin göstərdiyi diqqət və qayğıdan bəhs edib. A.Mirzəzadə Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində, gənclərimizin qazandıqları nailiyyətlərdən danışıb.

Sonra təşkilati məsələlərə baxılıb. YAP Mingəçevir şəhər təşkilatının 37 nəfərdən ibarət şura, 15 nəfərdən ibarət idarə heyəti müəyyənləşib. Bəxtiyar Mustafayev şəhər təşkilatı gənclər birliyinin sədri, Aytac Cavadova və Cavid Məmmədov isə sədr müavinləri seçilib.

Həmçinin, YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr seçilib.

*Rövşən RƏSULOV*

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi şimal bölgəsində vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəhbərliyi şimal bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Xidmət rəisi, general-leytenant Arzu Rəhimov mayın 16-da Qubadakı Heydər Əliyev Mərkəzində Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstəsi qoyulub.

Tədbirdə hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

Qəbulda bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb. Eyni zamanda, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavinləri general-mayor Mayıl Şahverdiyev Xaçmazda (Xaçmaz və Şabran sakinləri üçün), general-mayor Yusif Mirzəyev isə Siyəzəndə (Siyəzən və Xızı sakinləri üçün) vətəndaşların müraciətlərini dinləyiblər. Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Azərbaycan ilə Vyetnam turizm sahəsində tərəfdaşlıq edəcək



Mayın 16-da Vyetnamın Kuanqnam Vilayəti Xalq Komissiyasının vitse-prezidenti Le Van Thanhın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib. Səfər çərçivəsində təcrübə mübadiləsinin aparılması, əməkdaşlıq imkanlarının öyrənilməsi məqsədilə yerli turizm şirkətləri ilə görüş keçirilib. Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Vyetnamın Kuanqnam vilayətinin turizm imkanları barəsində təqdimat keçirilib, qarşılıqlı olaraq turist mübadiləsi barəsində müzakirələr aparılıb.

Tədbir çərçivəsində Azərbaycan Turizm Agentlikləri Assosiasiyası ilə Vyetnamın Kuanqnam vilayətinin Xalq Komissiyası arasında Anlaşma Memorandumu imzalanıb. Memoranduma əsasən tərəflər iki ölkənin turizm sahəsində fəaliyyət göstərən müvafiq qurumları və turizm agentlikləri arasında əməkdaşlığın inkişaf etdirilməsi üzrə razılığa gəliblər.



# Suraxanı rayonunda ilin 1-ci rübünün yekunları müzakirə olunub

***Azərbaycan Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Cənab İlham Əliyevin giriş və yekun nitqindən irəli gələn vəzifələr və Suraxanı rayonunda 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları rayon icra hakimiyyəti başçısı yanında Şuranın geniş iclasında ətraflı müzakirə olunub, qarşıda duran vəzifələr konkretləşdirilib.***

Dövlət başçısının çıxışında səsləndirdiyi başlıca müddəalar barədə ətraflı məlumat verən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov, son 15 il ərzində, Azərbaycanın dinamik inkişaf etdiyini vurğulayaraq, bu ilin birinci rübündə ümumi daxili məhsulu 3 faiz, sənaye istehsalı 4,4 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz, kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirlərinin 5,5 faiz artdığını bildirib: “Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” çərçivəsində “Neftçilər” Parkında yenidənqurma işləri başa çatdırılmışdır. Ümumi sahəsi 6 hektar olan ərazinin 4 hektarlıq hissəsində Mədəniyyət və İstirahət Parkı yaradılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva aprelin 18-də əsaslı şəkildə yenidən qurulan “Neftçilər” Parkında yaradılan şəraitlə tanış olmuşlar. Xocalı soyqırımının 27-ci ildönümü münasibəti ilə 26 fevral tarixində Heydər Əliyev Fondunun vitse-prezidenti, “Xocalıya ədalət!” kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyevanın iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə, “Neftçilər” Parkında 613 ağac əkilmişdir”.

İ.Abbasov bildirib ki, hesabat dövründə istilik qazanxanalarında, magistral və məhəlledaxili istilik xətlərində baş vermiş qəzalar aradan qaldırılmış və təmir işləri aparılmışdır. Rayon ərazisində mövcud TM və KTM-lərdə zədəli kabel xətləri və nasaz avadanlıqlar təmir olunmuş və ya yeniləri ilə əvəz edilmişdir. 2019-cu ilin 3 ayı ərzində, ətraf mühitin yaxşılaşdırılması tədbirləri davam etdirilmişdir. Rayon ərazisində məişət tullantılarının vaxtında daşınmasının, eləcə də, sanitar təmizliyin təmin olunmasının nəzarətdə saxlanılması məqsədi ilə komissiya yaradılmış, tədbirlər planı təsdiq edilmiş və məsələ ciddi nəzarətə götürülmüşdür. Hesabat dövrü ərzində, rayonda RİH-in təşkilatçılığı və digər qurumların iştirakı ilə bir çox ictimai-siyasi tədbir keçirilmiş, dövlət bayramları və əlamətdar günlər qeyd edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “ASAN Xidmət” mərkəzinin müasir texniki avadanlıqlarla təchiz edilmiş xüsusi avtobusları vasitəsilə 2019-cu ilin fevral-mart aylarında Hövsan və Zığ qəsəbələrində 1363 nəfər vətəndaşa səyyar formada “ASAN Xidmət” göstərilmişdir. İ.Abbasov, onu da vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, işsiz vətəndaşların haqqı ödənilən ictimai faydalı işlərə cəlb edilməsi proqramı davam etdirilmiş, cari ildə rayon üzrə 850 nəfər işsiz vətəndaşın yeni yaradılmış “DOST İŞ Mərkəzi” MMC tərəfindən haqqı ödənilən ictimai işlərə cəlb edilməsi nəzərdə tutulmuş və hazırda 728 nəfər bu sahədə işə qəbul edilmişdir.

Şuranın geniş iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Tağı Tağıyev, rayonun müəssisə və xidmət sahələrinin rəhbərləri və rayon sakinləri çıxış etmişdir.

***Zümrüd BAYRAMOVA***

# Daşkəsən rayonu inkişaf yolunda

***Dünən Daşkəsən rayon icra hakimiyyətinin iclas zalında 2019-cu ilin sosial-iqtisadi inkişafın birinci rübünün yekunları və qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilib.***



Yığıncağı giriş nitqi ilə Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev açaraq, hesabat məruzəsi ilə çıxış edib. O, ölkə Prezidenti



İlham Əliyevin, son 16 il ərzində, uğurlu siyasəti nəticəsində, Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini, əhalinin rifahının yüksəldiyini, xüsusilə, ölkəmizdəki sabitlik, sürətli inkişaf və beynəlxalq miqyasda nüfuzunun əhəmiyyətli dərəcədə artdığını bildirib. 2019-cu ilin birinci rübü də, əvvəlki illərdə olduğu kimi, sosial-iqtisadi cəhətdən respublikamız üçün uğurlu olmuşdur.

Ə.Abıyev, respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da, 2019-cu ilin birinci rübü ərzində, bir çox uğurlu işlər və nailiyyətlər əldə olduğunu söyləyib: “Rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda həmin işlər davam etdirilməkdədir. Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən “Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin həyata keçirilməsində, son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhəri ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur. Həmçinin, Daşkəsən şəhər N.Nərimanov adına 3 saylı, S. Vurğun adına 4 saylı və Qaraqullar kənd tam orta məktəblərində cari təmir işlərinə başlanılmışdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində, Qabaqtəpə və Dəvrallı kəndlərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 4 fərdi yaşayış evinin tikintisi başa çatdırılmışdı.

Rayon rəhbəri, onu da vurğulayıb ki, Prezident İlham Əliyevin tapşırığı ilə 2019-cu ilin fevral ayının 11-dən mayın 11-nə kimi, ölkədə əhalinin sağlamlığını təmin etmək üçün tibbi müayinə günü təşkil edilmişdir: “Həmin tapşırığa əsasən, Daşkəsən Rayon Mərkəzi Xəstəxanasında, müntəzəm olaraq, əhali qrafik əsasında tibbi müayinədən keçirilir. İndiyədək 49 yaşayış məntəqəsinin əhalisi və rayonun idarə, müəssisə və təşkilatların işçiləri tibbi müayinədən keçirilmişdir. Bu müddət ərzində, 23834 nəfər tibbi müayinədən keçmiş, 330 nəfər müxtəlif xəstəliklərdən ixtisaslaşmış tibb müəssisələrinə göndərilmiş, 489 nəfər Daşkəsən Rayon Mərkəzi Xəstəxanasının stasionar müalicəsinə cəlb olunmuş, 564 nəfərə isə ambulator müalicəyə yazılmışdır”.

Ə.Abıyev, birinci rüb ərzində, “Azer-Gold” Qapalı Səhmdar Cəmiyyətinə məxsus Çovdar Filiz Emalı Sahəsində 432,3 kiloqram qızıl filizləri və konsentratları, 901,8 kiloqram isə digər qiymətli metal filizləri və konsentratların istehsal olunduğunu deyib. Yığıncaqda müzakirə olunan məsələlərlə əlaqədar qərar qəbul edildikdən sonra toplantı iştirakçıları adından ölkə Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

Toplantıda əldə olunan nailiyyətlərlə yanaşı, həmçinin, həllini gözləyən digər problemlər və onların aradan qaldırılması yolları müzakirə olunub.

Toplantıda rayon üzrə maliyyə idarəsinin rəisi Natiq Zeynalov, RİHB-nin Daşkəsən şəhər İƏDÜN-i Nüsrət Vəliyev və digərləri çıxış edərək, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə, Prezident İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

Yığıncağın sonunda toplantı iştirakçıları adından ölkə Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

***R.KAMALQIZI***

# Şimali Kiprin “BRT” televiziyası Ermənistanın işğalçılıq siyasəti barədə veriliş yayımlayıb




***Şimali Kiprin “BRT” televiziya kanalında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xüsusi proqram yayımlanıb.***

AZƏRTAC xəbər verir ki, proqram Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin (AKDC) təşəbbüsü ilə hazırlanıb. AKDC-dən verilən məlumata görə, “Gündəm” verilişinin aparıcısı, Şimali Kiprin tanınmış telejurnalisti Aziz Qaraəziz tərəfindən hazırlanan proqramın qonağı Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri Orxan Həsənoğlu olub. O.Həsənoğlu bildirib ki, təcavüzkar Ermənistan bəzi xarici qüvvələrin təhriki və dəstəyi ilə Azərbaycan ərazisinin 20 faizini işğal edib. Bütün dünya bu işğaldan xəbərdardır. Bir sıra dövlətlər və beynəlxalq təşkilatlar Ermənistanın işğalçılıq siyasətinə kəskin etiraz etsələr də, Azərbaycan torpaqları hələ də işğaldan azad olunmayıb. Bu gün ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalan bir milyondan çox vətəndaşımız var. 1994-cü il mayın 12-də Bişkek protokolu ilə tərəflər arasında atəşkəs sazişi imzalansa da, Ermənistan tərəfi bu günə qədər bu razılaşmanın şərtlərinə əməl etməyib, əksinə, işğalçı tərəf hər gün Azərbaycan tərəfinə atəş açmaqda davam edir. Sözügedən protokolun imzalanmasından 25 il keçir. Proqramda tamaşaçılara Şuşanın işğalı ilə bağlı da məlumat verilib. Həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin bütün səylərinə baxmayaraq, Ermənistan hökumətinin münaqişənin sülh yolu ilə həllini əngəllədiyi bildirilib.

Diqqətə çatdırılıb ki, təcavüzkar tərəf Azərbaycanın yaşayış məntəqələrinə və mülki əhaliyə qarşı hücumları davam etdirir. Azərbaycan xalqı Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə tərəfdardır, eyni zamanda, öz ata-baba torpağını heç kimə güzəştə getmək niyyəti yoxdur. O.Həsənoğlu deyib ki, Azərbaycan xalqı öz Prezidenti ilə həmrəydir. Ölkədəki sabitliyin və inkişafın əsasını xalq-iqtidar birli təşkil edir.

# Laçının işğalından 27 il ötür

lər,

***1992-ci il mayın 17-də Ermənistan ordusu Şuşanın Turşsu kəndi və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçərək, Laçını işğal edib. İşğal 18 mayda tam başa çatıb. Düz 27 il əvvəl törədilən işğalın acı nəticələrini bu gün də yaşayırıq. Laçının işğalı damarında azərbaycanlı qanı dövr edən hər kəs üçün çox ağırdır.***



Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vasitəsilə daxil olub. Laçın işğal olunmamışdan bir gün qabaq, Azərbaycanın dağınıq halda olan silahlı dəstələrinin böyük əksəriyyəti cəbhə bölgəsini tərk edib. Bu işğala səbəb o vaxtkı iqtidarın və hakimiyyət uğrunda mübarizə aparan antimilli qüvvələrin fəaliyyəti idi. Laçının işğalı Dağlıq Qarabağla Ermənistan arasında əlaqənin yaranmasına gətirib çıxardı. İşğal nəticəsində 1835 kv. kilometrlik ərazi zəbt edildi, yüzlərlə maddi-mədəniyyət nümunəsi erməni vandalizminə tuş gəldi. Rayonun işğalı nəticəsində, 1 şəhər, 1 qəsəbə, 125 kənd, 13 min 745 fərdi ev, 48 sənaye, 63 kənd təsərrüfatı obyekti, 101 məktəb, 5 məktəbdənkənar, 2 məktəbəqədər müəssisə, 1 peşə məktəbi, 142 səhiyyə, 217 mədəni-maarif, 460 ticarət obyekti, 30 rabitə qovşağı, xalq teatrı, tarix-diyarşünaslıq muzeyi, 200-dən çox tarixi abidə talan edilərək dağıdılıb. Müharibə zamanı 267 laçınlı şəhid olub, 66 nəfər girov götürülüb, 105 nəfər əlilə çevrilib. Bu statistik rəqəmlər Laçının erməni qəsbkarları tərəfindən necə zəbt olunmasını açıq-aydın göstərir. Bütün dünyanın və beynəlxalq təşkilatların işğalçı ölkə kimi tanıdığı Ermənistanın silahlı qüvvələri bu şəhərdə Azərbaycan xalqının izlərini silmək, onu unutdurmaq üçün ən ağlagəlməz cinayətlərə əl atırlar. Təbii ki, Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Laçının işğal altına düşməsi təkcə laçınlıların deyil, bizim hamımızın böyük faciəsidir: "Çünki Laçının gözəl abidələri indi dağıdılıbdır. Bizim dini abidələrimiz dağıdılıbdır. Muzey eksponatlarımız talan edilibdir, evlər dağıdılıbdır. Laçınlıların evlərində indi düşmənlər yaşayır. Bu da, bir dərddir. Evin sökülməsi dərddir, amma evdə düşmənin yaşaması ondan da böyük dərddir". Prezident İlham Əliyev Laçın rayonunun bu vəziyyəti ilə barışmağın mümkün olmadığını bildirib.

## "...BÜTÜN DÜNYA BİRLİYİ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ TANIYIR"

İndi Azərbaycan dünyada böyük nüfuz sahibi olan dövlət kimi tanınır. Azərbaycanın iqtisadi potensialı və hərbi gücü, onu deməyə əsas verir ki, işğal altında olan torpaqlarmızın azad olunacağı gün uzaqda deyil. Bu, qaçılmaz reallıqdır. "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, bütün köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar" deyən Prezidentin bu fikirləri Azərbaycan həqiqətlərinə söykənir: "Biz bu illər ərzində böyük dərəcədə güclənmişik. Biz güclü hərbi potensial yaratmışıq. Bundan sonra, növbəti illərdə Ermənistan ilə Azərbaycan arasındakı fərq ancaq böyüyəcəkdir. Bu fərq hər yerdə özünü göstərir - iqtisadiyyatda, ölkələrimizin siyasi çəkisində, beynəlxalq dəstəkdə, hərbi potensialda və eyni zamanda, demoqrafik göstəricilərdə".

Hazırda Azərbaycan danışıqlar prosesini, ardıcıl olaraq, davam etdirir. Beynəlxalq təşkilatların qərarları və qətnamələri Azərbaycanın haqlı mövqeyini müdafiə etsə də, erməni lobbisi və havadarları ermənilərə dəstək olurlar. Ermənistan beynəlxalq təşkilatların, BMT-nin, onun Təhlükəsizlik Şurasının qətnamələrini icra etməlidir. "Beynəlxalq ictimaiyyət tələb etməlidir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çəkilsin, imkan versin və Azərbaycan vətəndaşları o torpaqlara qayıtsınlar. Çünki bütün dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır" deyən Cənab İlham Əliyev dünya erməniliyinin və onların arxasında dayanan anti-Azərbaycan qüvvələrinin fəaliyyəti nəticəsində, bu məsələnin də, dondurulmuş vəziyyətdə qaldığını bəyan edir.

## "BİZ İSTƏNİLƏN YOLLA ÖZ ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜ BƏRPA EDƏCƏYİK"

Təbii ki, işğal altında olan torpaqlarımız işğalçılardan azad ediləndən sonra, bütün torpaqlarda, o cümlədən, Laçında yeni inkişaf dövrü yaşanılacaq. Buna Azərbaycanın iqtisadi gücü çatar. Bu gün respublikamızın, ümumilikdə, 59 rayon və şəhərində müvəqqəti məskunlaşan 71,2 min laçınlıdan 13 mini Ağcabədi rayonu Taxtakörpü ərazisində yerləşib. Məcburi köçkünlər üçün burada yeni yaşayış qəsəbələri, parklar salınıb və Şəhidlər Kompleksi ucaldılıb. Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün salınan qəsəbədə bütün imkanlar yaradılsa da, dövlət başçısının apardığı prinsipial və ardıcıl siyasəti, birmənalı şəkildə, müdafiə edən laçınlılar el-obalarına - Laçına getmək arzusundadırlar. Ölkəmizin artan beynəlxalq nüfuzu və hərbi qüdrəti onların dədə-baba torpaqlarına tezliklə dönəcəklərinə əminlik yaradıb. İyirmi yeddi illik məcburi köçkünlük həyatı yaşamalarına baxmayaraq, inanırlar ki, işğal altındakı bütün ərazilərimiz düşmən tapdağından azad ediləcək.

Azərbaycan Prezidenti İlham Əliyev işğal altında olan torpaqlarımızın geri qaytarılacağını çıxışlarında əminliklə qeyd edir: "Bizim orduda xidmət edən gənclərimiz vətəni ləyaqətlə qoruyurlar və düşmənə çox güclü zərbələr vururlar. Belə də olmalıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlib. Cəmiyyətdə müşahidə olunan həmrəylik, səfərbərlik bizim qələbəmizi şərtləndirən amillərdən biridir, iqtisadi və hərbi gücüdür. Biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Erməni faşistləri zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi, o cümlədən, doğma Laçını sülh yolu ilə tərk etməsələr, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək, öz torpaqlarını azad edəcəkdir. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu, Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə, Hərbi-Dəniz Donanması və Quru Qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq gücündədir. MDB çərçivəsində Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Azərbaycan Prezidenti İlham Əliyevin "Bu gün Azərbaycan Ordusunda olan texnika ən güclü ordulardan da geri qalmır" fikrini ifadə etməsi, məhz bu gerçəkliklərdən qaynaqlanır.

Peşəkarlıqla yanaşı, ordunun maddi-texniki bazası da möhkəmlənib. Bu istiqamətdə, son illər ərzində, böyük işlər görülüb. Azərbaycan iqtisadiyyatının yüksəlişi, bütün sahələrdə olduğu kimi, ölkənin hərbi qüdrətinin də artmasında müsbət təsirini göstərib. Son bir neçə il ərzində Azərbaycanda müasir və çox güclü Hərbi-Sənaye Kompleksi yaradılıb. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib və bunun nəticəsi olaraq, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik ordumuz var. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, "Ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik".

## ERMƏNİSTANIN, ONUN İŞĞALÇILIQ SİYASƏTİNİN HEÇ BİR PERSPEKTİVİ YOXDUR

Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması Cənab Prezidentin öz vədinə sadiq olduğunu bir daha təsdiq edir. Bəli, bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşısında duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və heç şübhəsiz ki, belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləməyə və üçrəngli bayrağımızı Dağlıq Qarabağda dalğalandırmağa qadirdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində, gündən-günə daha da möhkəmlənir və döyüş qabiliyyətini artırır.

***ZÜMRÜD***

## Mehriban Abasquliyeva:
## "Bu insanlar normal, sivil qaydada öz fikirlərini və ideyalarını çatdırmaq qabiliyyətində deyillər"



"Brüsseldə Avropa İttifaqının Şərq tərəfdaşlığı sammitində Azərbaycan dövlətinin müstəqil və qəti mövqeyi, bir daha sübut etdi ki, ölkəmiz daim haqqın, ədalətin tərəfində dayanır və bütün siyasi məsələlərin bu çərçivədə həll olunmasının tərəfdarı olduğunu nümayiş etdirir". Bu fikirləri "SƏS" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyasının Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva bildirib. Onun sözlərinə görə, Azərbaycan dövlətinin və xalqının bir nömrəli problemi olan Qarabağın işğalı faktında - ərazi bütövlüyümüzün, birmənalı olaraq, tanınması məsələsində sərgilənən qətiyyətli mövqe daxili və xarici anti-Azərbaycan qüvvələrini ciddi şəkildə təlaşlandırır: "Bununla yanaşı, ölkəmizin sosial-iqtisadi inkişafı, aparılan inqilabi islahatlar, ölkə rəhbərinin daim xalqla təmasda olması, eləcə də, vətəndaşları narahat edən problemlərin qısa zamanda həll olunması kimi məsələlər xalqın dövlətə, dövlətin isə xalqa olan etimadını ən yüksək səviyyədə tərənnüm edir. Bu, bilavasitə xalq-iqtidar vəhdətinin bariz təcəssümüdür. Ona görə də, özlərini "siyasi mühacir" kimi qələmə verən, intellektual səviyyələri sıfır həddində olan bir qrup qaragüruhçu dərhal erməni diasporunun maliyyələşdirdiyi bəlli mərkəzlər vasitəsi ilə ortaya düşür və qaragüruhçuluq vasitəsi ilə düşmənə nökərçilik edirlər".

"Əlbəttə, belələri bununla sübut edirlər ki, heç vaxt dövlətçilik, xalq maraqları onları məşğul etməyib və əsasən, bəlli fəaliyyətləri ilə, yəni düşmən dəyirmanına su tökməklə, özlərini erməni lobbisinin ağuşuna atdırlar", deyə bildirən YAP Sabunçu rayon təşkilatının sədri, əlavə edib ki, bütün bunlara baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyev daim öz qətiyyətli və müdrik siyasəti ilə dövlətimizə qarşı yönələn bütün hücumları, qərəz və şantajları dəf edir.

Mehriban Abasquliyeva əlavə edib ki, bu gün ölkəmiz istər Avropada, istərsə də dünya miqyasında enerji təminatçısı rolunu oynayır, müxtəlif mühüm yol xəritələrinin iştirakçısı və ideyavericisi kimi tanınır: "Baxın, paytaxtımız Bakı olmaqla, regionlarımızda müxtəlif sahələri əhatə edən böyük tədbirlər, konfrans və seminarlar keçirilir. Deyərdim ki, Azərbaycan dünyanın siyasi mərkəzinə çevrilib. Bu, dövlətimizin nüfuzunun ali məqamlara söykənməsinin göstəricisidir və getdikcə, həmin nüfuz durmadan artır və yüksəlir. Antimilli qaragüruhçular isə bundan qorxuya düşürlər. Çünki ölkəmizin mövqeyi gücləndikcə, onların erməni lobbisi ilə birlikdə gücü zəifləyir və sıradan çıxır. Azərbaycan xalqı müdrik və ədalətlidir. Xalq hər şeyi gözəl dərk edir və kimin kim olduğunu da yaxşı bilir. Şərbaz və satqın müxalifətçilər isə, 25 ildən çoxdur ki, eyni şüarları səsləndirir, eyni populist və mənasız çağırışlar edirlər. Bu insanlar normal və sivil qaydada tədbir keçirmək, ictimaiyyətə öz fikirlərini, ideyalarını çatdırmaq qabiliyyətində deyillər. Çünki onlar hələ də 1990-cı illərin qaragüruhçuluq ab-havası ilə yaşayırlar. Biz, onların istər ölkədəki rüsvayçılıqla başa çatan mitinqlərinin, istərsə də Avropadakı sirk tamaşalarının da şahidləri olmuşuq. Bu baxımdan, onlar dərk etməyə məhkumdurlar ki, heç vaxt, heç zaman öz qaranlıq və çirkin məqsədlərinə çata bilməyəcəklər. Çünki ilk növbədə, beləlerinin qarşısında dövlətini, Vətənini, dövlətçilik maraqlarını qoruyan Azərbaycan xalqı dayanıb. Azərbaycan xalqı qanuni yolla seçdiyi iqtidara sadiqdir və onun siyasətini tamamilə dəstəkləyir. Sadəcə, bu gün Azərbaycanın müstəqilliyi, söz sahibi olması regionda və dünyada müəyyən rəqib qrupları və koalisiyaları qıcıqlandırır. Onlar unutmamalıdırlar ki, müstəqil Azərbaycan dövləti güclüdür, onunla heç bir qüvvə hədə və şantaj, sifarişli siyasi şoular yolu ilə danışa bilməz."

***Rəfiqə HÜSEYNOVA***

# İcra başçısı mantyor, müavinləri isə on ilin məhbusları və çuğulçular idi

*Yaxud tarix bizə nəyi xatırladır?*

***A**XC hakimiyyətinin (sonradan AXC-Müsavat iqtidarı) silahlı çevriliş vasitəsi ilə hakimiyyəti ələ almasından 27 il ötür və bu gün həmin dövrləri xatırlayarkən, bir daha həmin dövrlərdə Azərbaycanın müstəqilliyinin məhv olması, hətta xəritədən silinməsi təhlükəsinə nə qədər yaxın bir zaman olduğunu növbəti dəfə gözlərimiz önündə canlandırırıq. Əbəs deyil ki, hakimiyyətə yiyələnər-yiyələnməz, Əbülfəz Elçibəy və onun qaragüruhçu, naşı və siyasətdən, diplomatiyadan uzaq komandası Ermənistanın işğalçılıq siyasətinə qarşı mübarizəni və cəbhədəki mövqeləri gücləndirmək əvəzinə, bir-birləri ilə nazir, deputat kürsüləri üstündə savaşa qalxdılar, o cümlədən, rayonlarda icra hakimiyyətləri başçılarını təyin etmək üçün, ümumiyyətlə, bu sahəyə aidiyyatı olmayan insanları təyin etməyə başladılar.*

## AXC-Müsavat iqtidarı başda prezident Əbülfəz Elçibəy olmaqla kef-damaq, eyş-işrət məclislərindən geri qalmır, xalqı və dövləti taleyin ağır hökmünə buraxırdılar

Xüsusilə, ağır döyüşlər gedən mühüm strateji rayonlarda rəhbərlik strukturlarına ali savadları olmayan, keçmişləri qaranlıq, hət-



ta cinayətkar olanlar təyin olunurdu ki, bu da, daha ağır və qarşısıalınmaz fəsadlara səbəb olurdu.

Özü də Şuşanın və Laçının işğalının ardınca Kəlbəcərin acınacaqlı vəziyyəti ərəfəsində, AXC-Müsavat iqtidarı, başda prezident Əbülfəz Elçibəy olmaqla, kef-damaq, eyş-işrət məclislərindən geri qalmır, xalqı və dövləti taleyin ağır hökmünə buraxırdı.

## Təkcə Kəlbəcər rayonunda baş verən hadisələr incələnərkən, bənzər vəziyyətin bütün respublikada yaşandığını xatırlaya bilərik

Bu arada, AXC-Müsavat hakimiyyətinin xalq tərəfindən rədd edilməsinin ardınca, Milli Məcisdə edilən çıxışlar bu gün də tarixi xronologiyası ilə xatırlanmaqda, həmin dövrlərdə vəziyyətin nə qədər çətin və dözülməz olduğunu sübuta yetirir. Şəhid milli qəhrəmanımız Şahlar Şükürovun atası, 1993-95-ci illərdə Kəlbəcərin icra başçısı vəzifəsini daşıyan mərhum Əvəz Şükürovun Milli Məclisdəki faktlara əsaslanan çıxışında isə, təkcə Kəlbəcər rayonunda baş verən hadisələr incələnərkən, bənzər vəziyyətin bütün respublikada yaşandığını xatırlaya bilərik.

Əbəs deyil ki, Əvəz Şükürov həmin çıxışında Kəlbəcərin icra başçısı vəzifəsinə mantyorun təyin olunduğunu, müavinlərinin birinin 10 illik həbsxanada yatmış cinayətkar, digərinin isə İkinci Dünya müharibəsində faşistlərlə əlbir olan vlasovçunun oğlu olduğunu, müharibədən sonra isə çuğulçuluqla məşğul olmasını sözün əsl mənasında, yana-yana bildirib. Onun həmin ifadələrindən digər detallara nəzər saldıqda isə, insanı, sadəcə, hiddət bürüyür!

## Mərhum Əvəz Şükürov deyirdi: "Bakıdan dövlət adamları gedib 15 günlük toyda iştirak edib, yeyib-içdilər və geri qayıtdılar, rayon isə işğal ərəfəsindəydi..."

Belə ki, Kəlbəcərə icra başçısı təyin olunan şəxsin öz ailəsində belə, ciddi problemlər yaşanıb, hətta ata və anası arasında düşmənçilik münasibəti mövcud olub. Belə bir adamın öz ailəsini bir araya gətirə bilmədiyi halda, Kəlbəcər kimi mühüm strateji rayona icra başçısı təyin olunması Elçibəy iqtidarının nə qədər xam və naşı olduğunu isbatlayır.

Bu da, azmış kimi, Əbülfəz Elçibəy mantyor icra başçısının toyuna, xüsusi olaraq, adam göndərib. Toy isə nə az-nə çox, düz 15 gün davam edib (?!). Mərhum Əvəz



Şükürov xatırladır: "Əbülfəz Elçibəy həmin adamın toyuna adam göndərdi və o da, 15 gün toy elədi. Halbuki Nikolayın vaxtından orada 15 gün toy olmayıb. Yalnız bəylər və mülkədarlar uzağı 2-3 gün toy edərdilər. Bakıdan dövlət adamları gedib 15 günlük toyda iştirak edib, yeyib-içdilər və geri qayıtdılar, rayon isə işğal ərəfəsindəydi..."

## "Əgər ölkənin rəhbərliyi bir rayonunda əhalinin sayını bilmirsə, onda həmin adamlardan nə danışmaq olar, onlara necə qiymət vermək olar?!"

Daha bir acınacaqlı fakt, dövlət rəhbərliyində işləyənlərin - İsa Qəmbərin, Pənah Hüseynin, İsgəndər Həmidovun, Rəhim Qazıyevin öz vəzifələrinin öhdəsindən, ümumiyyətlə, gələ bilməmələri məsələsidir. Misal üçün, həmin çıxışdan məlum olur ki, Kəlbəcərdən qaçqın düşənlərin sayını Prezident Administrasiyası bilmirdi. "Pənah Hüseyn Gəncədə müşavirə keçirəndə, 78 min deyib, digəri 68 min, daha biri də 60 min deyib. Əgər ölkənin rəhbərliyi bir rayonunda əhalinin sayını bilmirsə, onda həmin adamlardan nə danışmaq olar, onlara necə qiymət vermək olar?!" deyə o, çıxışında sual edib.

Əvəz Şükürov, Kəlbəcərin də Şuşa və Laçın kimi, AXC-Müsavat hakimiyyəti tərəfindən qumara qoyulduğunu bildirib. Hətta işğaldan öncə, o, prezident Elçibəyə teleqram vurduğunu da deyib.

## "Elçibəyə teleqram vurdum ki, bəlkə Kəlbəcəri Şuşa və Laçın kimi, qumarda uduzmaqdan qoruyaq"

Lakin nə prezident, nə də digər cavabdeh şəxslər həmin teleqrama etina göstərməyiblər. SİTAT: "Deyirlər ki, burada Elçibəyin nə günahı var? Ona teleqram vurdum ki, Şuşa və Laçın kimi Kəlbəcər də qumara qoyulub. İndi də onun uduzma vaxtı çatıb. Xahiş edirəm, məni Milli Məclisin iclasına çağırın, bəlkə onun qumara qoyulmasından xilas edək. O da, oxuyub qoyurdu stolunun üstünə və heç bir tədbir görmürdü".

O, bu kimi ağır bir vəziyyətdə Elçibəyin deyil, ətrafının günahkar olması iddialarına da münasibətini açıqlayarkən, bildirmişdi ki, məhz Kəlbəcərin iqtisadi və s. cəhətdən strateji əhəmiyyətini kimsə dərk etmirdi: "Demək belə çıxır ki, onun Gəncədə də günahı yoxdur, Kəlbəcərdə də günahı yoxdur? Halbuki Kəlbəcərdə 23 rayonun qoyunu yaylaqlayırdı. 320 ton qızıl valyutaya daxil olub. Dünyada ən keyfiyyətli uran Kəlbəcərdədir. Kəlbəcərin isti suyunu ermənilər ərəb ölkələrinə satırlar. Bütün məsuliyyət Elçibəyin və onun komandasının üzərində olub. Rəhim Qazıyev, İsgəndər Həmidov, Pənah Hüseyn, İsa Qəmbər və sairləri".

## Əvəz müəllim Elçibəyə və onun komandasına Ermənistana keçməyi təklif etmişdi

Beləliklə, istər Elçibəyin, istərsə də onun ətrafının hakimiyyətə təsadüfi gəldiklərinə işarə edən Əvəz Şükürov, bununla sübut edib ki, təkcə bu rayonun işğalı Azərbaycan dövlətinə və xalqına kifayət qədər ciddi ziyan vurub. Əgər nəzərə alsaq ki, bu ziyanlar, ağır itkilər və s. digər cəbhə bölgələrində də yaşanıb, bu zaman AXC-Müsavat iqtidarının və Elçibəy hökumətinin nə qədər cinayətlərdə əllərinin olması faktları özü-özlüyündə sübuta yetirilər. Əbəs deyil ki, həmin tarixi çıxışda mərhum Əvəz müəllim Elçibəyə və onun komandasına Ermənistana keçməyi təklif etmişdi. Çünki onların hər biri, bilavasitə ermənilərin maraqlarına xidmət edən, satılan və xainlik edən kəslər olublar.

Göründüyü kimi, bu, çoxsaylı faktların hələ ən cüzi hissəsidir və başqa faktlar da ortaya çıxarılarsa, o zamanlar Azərbaycan dövlətçiliyinin yer üzündən silinmək təhlükəsinin nə qədər yaxın olduğunu hiss etmək mümkün olardı. Məhz həmin faktları dərk edən Azərbaycan xalqı daha ağır zülmlərə, işğallara, xəyanətlərə, satqınçılıqlara tuş gəlməmək üçün, başda Elçibəy hökumətini və AXC-Müsavat iqtidarını siyasi arenadan süpürüb atdı...

**Rövşən NURƏDDİNOĞLU**

## Yasamalda "Nissan" avtomobili yanıb



Yasamal rayonunda "Nissan" markalı minik avtomobili yanıb. Fövqəladə Hallar Nazirliyindən bildiriblər ki, nəticədə avtomobilin mühərrik hissəsi yararsız hala düşüb. Nəqliyyat vasitəsinin qalan hissəsi yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

## İran vətəndaşından psixotrop maddə aşkarlanıb

İran vətəndaşından psixotrop maddə aşkarlanıb. Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən bildirilib ki, Cənub Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında İran İslam Respublikasından gələn bu ölkənin vətəndaşı Zolfagharı Sabzeh Khanı Hanıeh Alı qızı Biləsuvar gömrük postunda saxlanılıb və onun üzərində şəxsi yoxlama aparılıb. Şəxsi yoxlama zamanı həkim müayinəsinə zərurət yaranıb. Müayinə zamanı onun daxili bədən boşluğundan ümumilikdə 3 ədəd, sellofan bükümdə xalis çəkisi 162,54 qram təşkil edən psixotrop maddə - metamfetamin aşkar edilib. Xatırladaq ki, metamfetamin adlı preparat "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş psixotrop maddələrin I Siyahısı"na daxildir. Faktla bağlı araşdırma aparılır.

## Ölkəyə qanunsuz yolla siqaretlərin gətirilməsi cəhdinin qarşısı alınıb

Ölkəyə qanunsuz yolla siqaretlərin gətirilməsi cəhdinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan vətəndaşının idarə etdiyi "VAZ-2108-01" markalı avtomobil saxlanılıb və sürücüsü şifahi sorğu-sual edilib. Sorğu-sual zamanı vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gizlədilən və gömrük nəzarətinə mütləq bəyan edilməli hər hansı predmetin olmadığını bildirsə də, gömrük baxışı zamanı avtomobilin arxa oturacağının içərisində əvvəlcədən gömrük orqanına bəyan edilməyən 8600 ədəd "King" markalı siqaret, 2 ədəd üzərində "Redmi 7" və bir ədəd üzərində "Samsung A50" yazılan telefon qutuları aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Xaricdəki “söyüş qrupu” erməni maraqlarına xidmət edir

***Son vaxtlar xaricdəki “söyüş qrupu”nun üzvləri Azərbaycan dövlətinin, xalqının milli hissiyyatına toxunan təhqiramiz ifadələr işlədir və videolar paylaşırlar. AXCP sədri Əli Kərimli, Sevinc Osmanqızı kimi xarici maraqlı dairələrdən maddi və mənəvi dəstək alan ünsürlər də, onların bu fəaliyyətlərinə dəstək nümayiş etdirirlər. Söhbət etdiyimiz müsahiblərimiz “söyüş qrupu”nun üzvlərinin, eləcə də, Ə.Kərimli və S.Osmanqızının təxribatçı fəaliyyətləri ilə erməni maraqlarına xidmət etdiklərini bildirdilər.***

“Azadlıq Hərəkatçılar Birliyi”nin sədri Təhmasib Novruzov: **“Müxalifət boşboğazlıq edir”**



- Azərbaycan cəmiyyəti kifayət qədər inkişaf etmiş bir cəmiyyətdir. Xalqımız, həm də müasir dünyada gedən prosesləri dərk edir. Yəni insanlar daxili və xarici qüvvələrin məkrli niyyətlərini tam şəkildə bilir. Məsələ burasındadır ki, xaricdən maliyyələşən bu adamların daxildəki dəstəkçiləri də, bilavasitə məkrli qüvvələrə bağlı adamlardır. Bir sözlə, xarici anti-Azərbaycan dairələri əlaltılarına söymək, təhqir, qarayaxma və gözdənsalma, sifarişi verirlər. Bu sifarişi də, həm xaricdəki “söyüş qrupu”nun üzvləri, həm də daxildəki müxalifət təmsilçiləri canla-başla yerinə yetirirlər. Bu sifarişlərin yerinə yetirilməsi qarşılığında kifayət qədər maliyyə vəsaiti əldə edirlər. Həm xaricdəki həm də daxildəki bu qüvvələr Azərbaycan dövlətinin inkişafını istəmir və onlar bu cür hərəkətləri ilə ölkəmizin uğurlarına kölgə salmaq istəyirlər. Amma sözügedən bu qüvvələrin nə demələrindən və nə etmələrindən asılı olmayaraq, onlar heç vaxt öz məkrli planların həyata keçirə bilməyəcəkdir. Müxaliflər boş-boş danışa-danışa qalacaqlar. Bu isə boşboğazlıqdır. Çünki bu gün Azərbaycan dövləti dünya dövlətləri arasında öz sözünü demiş və kifayət qədər hörmətini qazanmış bir dövlətdir.

“Kaspi” qəzetinin baş redaktoru İlham Quliyev: **“Siyasətdə söyüş dili qəbulolunmazdır”**



- Azərbaycan cəmiyyəti xaricdəki “iaşə müxalifəti”nin söyüş dilini və anormal fəaliyyətini tənqid edir. Siyasi mübarizədə bu yoldan istifadə olunması yolverilməzdir. Əslində, özünün siyasi reputasiyasına hörmət edən istənilən siyasi qüvvə təmsilçisi bu yolu, birmənalı şəkildə inkar etməlidir. Yəni siyasətdə söyüş dili qəbul oluna bilməz. Bu baxımdan, özünə hörmət edən siyasi qüvvə bu cür hallara dəstək verməməlidir. Əli Kərimli, Sevinc Osmanqızı və digərləri bu yolu qəbul edirlərsə, bu yolu seçənlərin səviyyəsinə enmiş olurlar. Arzu edərdim ki, Azərbaycanın heç bir siyasətçisi, heç bir jurnalisti bu yola baş vurmasın, bu yolu seçməsin və bu yolun yolçusu olmasın. “Söyüş müxalifəti” ilə bağlı müxtəlif fikirlər səsləndirilib, onların müxtəlif dairələrin əlində alət olduğu ilə bağlı fikirlər dilə gətirilib. Birmənalı şəkildə, məlumdur ki, onlar kimlərsə tərəfindən idarə olunurlar. Özlərini ciddi siyasi qüvvə hesab edən, ciddi media təmsilçisi hesab edən şəxslərin də bu dəstəyə qoşulmaları və yaxud bu dəstəni dəstəkləmələri onların daxili aqressiyasından, uğur əldə etmək imkanlarının aşağı olmasından irəli gəlir. Yəni sivil yolla nəyə isə nail ola bilmədiklərindən, öz aqressiyalarını bu yolla ifadə etməyə çalışırlar. Amma bu da, heç bir halda, hörmət gətirmir və onları daha da gözdən salır.

**GÜLYANƏ**

# UEFA QARAYAXMASI İFLASA UĞRAYACAQ

***“Eurovison”, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, “Formula-1” kimi qlobal nüfuzlu mədəniyyət və idman tədbirlərini yüksək səviyyədə təşkil edən Azərbaycan mayın 29-da UEFA Liqasının final oyununa ev sahibliyi edəcək. Bakıdakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının finalı iki ingilis komandası-”Arsenal” və “Çelsi” arasında baş tutacaq. Bakıda keçiriləcək finala maraq olduqca böyükdür və gözlənilir ki, minlərlə ingilis futbol fanatı da daxil olmaqla, Avropadan çoxsaylı azarkeşlər bu futbol bayramını izləmək üçün Bakıya axışacaqlar.***



Lakin belə mühüm beynəlxalq idman tədbirindən fürsət kimi yararlanıb, Azərbaycana qarşı qara piar kampaniyası başlanıb. Artıq bir müddətdir Qərbdəki ənənəvi anti-Azərbaycan dairələri bu idman hadisəsi fonunda ölkəmizə qarşı növbəti məkrli kampaniyaya başlayıblar. Həmin kampniyanın təşəbbüskarları və iştirakçılarının taktikası dəyişməyib, onlar beynəlxalq ictimaiyyətdə, belə bir rəy formalaşdırmağa çalışırlar ki, UEFA finalı kimi mühüm idman tədbirinin Azərbaycanda keçirilməsi düzgün deyilmiş.

Hər dəfə şahidi olmuşuq ki, anti-Azərbaycan mərkəzləri mühüm ictimai-mədəni hadisələr ərəfəsində ölkəmizin imicini ləkələmək üçün qarayaxma kampaniyası aparır, tədbirlərin əhəmiyyətini azaltmağa çalışırlar. Elə UEFA Liqasının final oyununa qarşı aparılan çirkin kampaniya da, bu baxımdan, istisna təşkil etmir.

Bu dəfə isə, Böyük Britaniya XİN də daxil olmaqla, bir sıra instansiyalar idmana aidiyyəti olmayan, qərəzli və reallıqdan uzaq subyektiv mülahizələr irəli sürür və beynəlxalq ictimaiyyətdə bu mühüm idman tədbirinin Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmadığı barədə rəy formalaşdırmağa çalışırlar.

Amma hər kəs çox yaxşı bilir ki, anti-Azərbaycan dairələrinin irəli sürdüyü iddialar tamamilə əsassızdır. Çünki Azərbaycan insan hüquqlarını ən yüksək səviyyədə təmin edən ölkədir və təklif edirik ki, B.Britaniya öz daxilində müsəlmanların haqlarının hansı dərəcədə pozulmasının qarşısını almaqla məşğul olsun. Çünki Azərbaycan hər dəfə belə dairələrə sübut edə bilib ki, əvvəla, insan haqlarının total pozulması barədə ittihamların əsası yoxdur. Digər tərəfdən, indiyə qədər UEFA finallarının baş tutduğu ölkələr, insan haqları baxımından ideal idi? Məgər bu ölkələrdə polisin nümayişçilərə qarşı ifrat güc tətbiq etməsi barədə səhnələr yaddaşlardan belə tez silinib? Ola bilər həmin dairələr bu faktları görməzliyə vururlar, amma internetin yaddaşı möhkəmdir və Avropa ölkələrində insan haqlarının pozulmasına dair çoxsaylı faktları və görüntüləri tapmaq heç bir çətinlik törətmir.

Eyni zamanda, Bakıya final oyununu izləməyə gələcək turistlərin təhlükəsizliyinə tam təminat verilir, şəhərimizin qonaqları sadələşdirilmiş vizadan, 20-30 dollardan başlayan otellərdən istifadəsinə və ucuz qiymətə aviabiletlər almalarına şərait yaradılır. Məsələn, AZAL hazırda Böyük Britaniyaya və geriyə olan reyslərinə beynəlxalq mülki aviasiyada mümkün olan ən aşağı qiymətlərdən başlayaraq, qiymətlər tətbiq edir. AZAL -ın Londondan Bakıya və geriyə uçan lüks təyyarələrinə təklif etdiyi qiymətlər mövcud beynəlxalq qiymətlərdən daha aşağıdır. Bunu yoxlamaq üçün online bilet satışı üzrə ixtisaslaşmış saytlara daxil olub, qiymətlərə müqayisəli şəkildə göz gəzdirmək kifayətdir.

O ki qaldı “Arsenal” klubunun oyunçusu erməni əsilli Henrix Mxitaryana, onun da təhlükəsizliyinə təminat verilir. Britaniya XİN və anti-Azərbaycan dairələri nəzərə alsınlar ki, əvvəllər də erməni idmançılar Azərbaycana gəliblər, hətta dövlət başçısı onlara şəxsən mükafat təqdim edib və heç bir insident, xoşagəlməz hal da qeydə alınmayıb.

Göründüyü kimi, ayrı-ayrı dairələrin irəli sürdüyü iddialar əsassızdır və qərəzlidir. Bakı finalına qarşı qarayaxma kampaniyası aparan dairələr, xüsusilə də, Britaniya XİN nəzərə alsın ki, kifayət qədər sərt xarakterli, iğtişaşlar törətmək təcrübəsi olan ingilis fanatlar bir o qədər də arzuolunan qonaq deyillər. Buna baxmayaraq, Azərbaycan bütün məsələləri ən yüksək səviyyədə təşkil etməyə hazırdır və bunu dəfələrlə əməldə sübut edib.

Bir sözlə, bütün bunlar sübut edir ki, xaricdəki maraqlı dairələr Azərbaycanın dünyada nüfuzunun artmasından, onun yüksək səviyyəli iqtisadi, siyasi və humanitar mərkəzə çevrilməsindən narahatdırlar. Ona görə də, Azərbaycanın beynəlxalq nüfuzunu ləkələmək məqsədi güdən əsassız iddialar iflasa uğrayacaq və hər dəfə olduğu kimi, bu idman tədbiri də ən yüksək səviyyədə təşkil ediləcək və dünya nümunəvi final təşkilatçılığının şahidi olacaq.

***“Səs” Analitik Qrupu***

# Xainləri gözləyən sonluq - ÖLÜM!

*Antimilli qüvvələrin planları baş tutmadı*

***Yenə də böyük təşviş keçirən antimilli qüvvələr meymunluq etməyə başlayıblar. Bunun səbəbi isə, Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi, günü-gündən inkişaf etməsi, təkcə mövcud olduğu regionda deyil, onun hüdudlarından kənarda belə böyük nüfuz sahibi kimi çıxış etməsi olub. Azərbaycanın qazandığı uğurların miqyası artdıqca, anti-Azərbaycançı şəbəkənin qəddi daha çox əyilir, müvəffəqiyyətsizliyindən doğan əsəbi, daha çox tarıma çəkilir.***



Bu günlərdə erməni sifarişini yerinə yetirən və Avropada “siyasi mühacir” adı ilə zibillikləri sülənən erməni diasporunun maliyyə dəstəyi ilə antimilli fəaliyyət göstərən Orduxan Teymurxan və ətrafının Brüsseldə aksiya keçirmək cəhdləri yenə də fiaskoya uğuradı. Azərbaycana qarşı kampaniyada media ruporu rolunu oynayan “Azadlıq”, ikili yanaşma nümayiş etdirməklə, bir daha həyasızlığını göstərib. Radionun açıqlamasında qeyd olunur ki, söhbət Dağlıq Qarabağdan gedir. “Ötən əsrin 90-cı illərindən Ermənistan tərəfindən dəstəklənən tanınmamış hökumətin rəhbərlik etdiyi regiondan söhbət gedir”. Təsəvvür edirsiniz? Bunu “Azadlıq” radiosu yazır, özü də bu qədər həyasızcasına! Nə Ermənistan tərəfindən işğal olunmuş torpaqlar söhbəti, nə etnik təmizləmə, nə 1 mln. qaçqın və məcburi köçkünün adı çəkilir. Yalnız Ermənistan tərəfdən dəstəklənən tanınmamış hökumət. İndi özünüz qiymət verin. Bir tərəfdə Avropa sənədini imzalamaqdan ərazi bütövlüyü məsələsinə görə imtina edən Azərbaycan rəhbəri, digər tərəfdə anti-Azərbaycan şəbəkəsi, düşmənlər və onlara quyruq bulayan Orduxan və onun kimi ləyaqətini, şərəfini başqa ölkələrə satmış xəyanətkarlar dayanıb. Və 3-4 Avropanın zibilliklərində sülənənlərin “Azərbaycanın mənafeyini qoruyuram”- demələri əxlaqsızlıq və mənəviyyatsızlıqdır. Bu yerdə “Uzaq sahillərdə” filmindəki satqın Karranti ilə Mixaylo arasındakı dialoq yada düşür: “Mən alman deyiləm, Mixaylo, mən italyan da deyiləm, mən... - Sən ancaq alçaqsan!” Doğrudan da, xainlərin, satqınların, şərəfini satmışların nə vətəni, nə də milliyyəti olur.

Bu gün Fəxrəddin Abbaszadənin kimliyi üzərində düşünərkən bu dialoq yada düşür.

### Söyüş dəstəsinin fəaliyyəti sosial şəbəkədən o tərəfə keçməyəcək

Bu o dağıdıcı müxalifətdir ki, Azərbaycanda hakimiyyət və onun apardığı siyasət barəsində cəmiyyətdə yanlış rəy formalaşdırmağa çalışır, onlar Azərbaycanla Aİ arasında imzalanması gözlənilən Strateji Tərəfdaşlıq Haqqında Saziş barəsində yalan məlumatlar yaymağa cəhd edirlər. Ancaq bir həqiqəti anlamayan bu sələngəc erməni qulbeçələri Şərq Tərəfdaşlığı Proqramında iştirak edən ölkələr arasında Azərbaycan yeganə ölkədir ki, öz potensialına və səylərinə arxalanaraq, problemlərini həll etmək iqtidarındadır. Hər şeydən əlləri üzülən, təhqir və böhtan yayanlar isə istədiklərini ala bilməyəcəklər. Bu əxlaqsız və mənəviyyatsız söyüş dəstəsinin fəaliyyəti sosial şəbəkədən o tərəfə keçməyəcək və bütün təxribatları uğursuzluqla nəticələnəcək.

**R.HÜSEYNOVA**

# Şəxsiyyətin fundamental hüquqları

***Məlum olduğu kimi, əsas fundamental hüquqlar və buradan yaranan digər hüquq və azadlıqlar insan həyatının müxtəlif sahələrini - şəxsi, siyasi, sosial, iqtisadi və mədəni sahələri təmin edir. Buna uyğun olaraq, hüquq və azadlıqları ənənəyə əsaslanaraq, üç qrupa ayırmaq qəbul olunub: 1) şəxsi, 2) siyasi, 3) sosial, mədəni və iqtisadi.***

Hüquq elmləri doktoru, professor Aytən Mustafayeva yazır: "Şəxsi hüquq və azadlıqlar, bilavasitə şəxsiyyətlə bağlıdır, vətəndaşlığa mənsubluqla əlaqələndirilmir və ondan irəli gəlmir. Şəxsi hüquq va azadlıqlar ayrılmazdır və doğulduğu andan insana məxsusdur onun həyatının qorunmasının, azadlığının, ləyaqətinin təmin edilməsi üçün vacib olan hüquq və azadlıqlar, habelə, onun fərdi, özəl həyatı ilə bağlı olan digər təbii hüquqlardır.

Məlumdur ki, şəxsi hüquqlara - yaşamaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq, şəxsi həyatın toxunulmazlığı, mənzil, sərbəst yerdəyişmə və yaşayış yerini seçmək, vicdan azadlığı, fikir və söz azadlığı, öz hüquqlarının məhkəmə müdafiəsi, hüquqi müdafiə, məhkəməyə cəlb olunarkən, prosessual təminat və s. aiddir. Hər bir insan üçün ən ali dəyər, şübhəsiz, yaşamaqdır. Məhz buna görə də, yaşamaq hüququ insanın bütün hüquqları arasında ən vacibidir, məhz bu hüquq dövlət tərəfindən birinci növbədə müdafiə olunmalıdır.

Bir vaxtlar sovet elmi, xüsusilə, hüquqi sahədə bu fərqi tanınırdı. İddia edilirdi ki, öz məzmununa görə, vətəndaşın hüquqları elə şəxsiyyətin, insanın hüquqlarıdır, insanın və vətəndaşın hüquqi statusları arasında fərq qoymaq lazım deyil. Bu, onunla izah olunur ki, birincisi, bu statuslar ümumi xarakter daşıyır. İkincisi, göstərilən subyektlərin keyfiyyətləri bir şəxsdə üst-üstə düşür. Üçüncüsü isə onların əsas hüquq və vəzifələri eynidir."

Yaşamaq hüququ, ənənəvi olaraq, "hüquqların şahı", hər bir insanın təbii və ayrılmaz hüququ sayılır. İnsan hüquqları problemi ayrı-ayrı dövrlərdə siyasi-hüquqi cəhətdən dəyişməz qalıb, iqtidarda olan siniflərin sosial mövqeyindən asılı olaraq, ya dini, ya etik, ya da fəlsəfi çalarlar əldə etmişdir. Bu, bütün dünyanın bütöv filosof və hüquqşünaslar nəslinin üzərində işlədiyi hüquqi deyil, fəlsəfi kateqoriyadır.

Sovet dövrünün elmi ədəbiyyatında (N.V.Vitruk) "şəxsiyyət" termini çox zaman "insan" və "vətəndaş" mənalarında işlədilirdi. Bu, onunla izah olunurdu ki, hüquqi sistemin özünün dəyəri orada şəxsiyyətin hansı yeri tutması, hüquqi sistemin ona öz imkan və qabiliyyətlərini hansı dərəcədə açması, sosial və mənəvi potensialını reallaşdırmaq imkanı verməsi ilə təyin edilir. Şəxsiyyətin hüquq və azadlıqlarının, bilavasitə gerçəkləşdirilməsi mexanizmi az işlənilmiş və kifayət qədər öyrənilməmiş mövzudur. Bu, təkcə elmi ədəbiyyatda deyil, həm də sovet dövrünün qanunvericiliyində insanın hüquq və azadlıqlarının gerçəkləşdirilməsi prosesində şəxsiyyətin rolunun natamam qiymətləndirilməsi ilə bağlıdır. Dövlət şəxsiyyətin öz hüquqlarını reallaşdırması prosesində birbaşa və dolayısı ilə iştirak edir, bu prosesin hər bir mərhələsinə nəzarət etməklə, vətəndaşların öz hüquqlarını reallaşdırmaq üçün üsul və vasitələr seçmək istiqamətində sərbəstliklərini xeyli məhdudlaşdırırdı. Şəxsiyyətin öz hüquq və azadlıqlarının həyata keçirilməsini özü təşkil etdiyi və qaydaları özü müəyyənləşdirdiyi təşəbbüskar qaydalar ikinci dərəcəli rol ayrılırdı.

L.D.Voyevodinin fikrincə, şəxsiyyətin hüquq və azadlıqlardan, bilavasitə istifadə etməsi prosesini dinamik sistem şəklində təsəvvür etməklə, "mexanizm" kateqoriyası vasitəsilə bütün bu prosesi əhatə etmək mümkündür. Bilavasitə, reallaşma mexanizminin təhlili bu mexanizmin strukturunu, elementlərinin qarşılıqlı əlaqə və təsirini açmağa, hüquq və azadlıqların birbaşa gerçəkləşməsi zamanı sosial mühitin rolunu və şəxsiyyətin psixoloji keyfiyyətlərini aşkarlamağa imkan verər.

N.S.Kolesovanın fikrincə, insan hüquqları nəzəriyyəsinə "insan", "şəxsiyyət", "vətəndaş", "fərd", "subyekt", "insan hüquqları", "vətəndaş hüquqları" anlayışlarının nisbəti haqqında məsələ daxildir. Bu anlayışların nisbətinin çox geniş müzakirə edilməsinə baxmayaraq, müasir elmi ədəbiyyatda bu məsələ, hələ ki, öz aktuallığını itirməyib. Belə ki, o, ümumbəşəri dəyərlərə və insan hüquqlarının prioritetliyinə əsaslanan hüquq anlamı nəzəriyyəsi ilə uzlaşaraq, yeni inkişaf yoluna qədəm qoyub və şübhəsiz ki, həm praktiki, həm də nəzəri əhəmiyyətə malikdir.

V.P.Tuqarinov qeyd edir ki, şəxsiyyət, fəqət, böyük və psixi cəhətdən normal insana xas xüsusiyyətlərə malik olmalıdır. N.İ.Matuzov isə şəxsiyyət adı altında, sadəcə, insanın deyil, habelə, insanla cəmiyyət arasında qarşılıqlı münasibətlər prosesində və bunun təsiri altında formalaşan bütün xüsusiyyətləri və keyfiyyətləri əxz edən insanın başa düşüldüyünü iddia edir. V.A.Kuçinskinin qənaətincə, insanın şəxsiyyət olması üçün, o, təbii və sosial inkişafın müvafiq mərhələlərini keçməlidir: təkcə fiziki və psixi inkişafın müəyyən səviyyəsinə çatmamalı, həm də digər insanlarla ünsiyyət prosesində zəruri sosial təcrübə qazanmalıdır. A.Mustafayeva yazır: "Hesab edirik ki, "şəxsiyyət" kateqoriyasına müxtəlif elmlər tərəfindən araşdırılan və rəngarəng təzahürləri ehtiva edən çoxşaxəli anlayış kimi baxmaq lazımdır. Müasir hüquq, sosiologiya və fəlsəfə elmləri sübut edir ki, hər bir insan şəxsiyyətdir. Bu mövqe ardıcıl olaraq humanist, demokratik və elmi cəhətdən əsaslandırılmış kimi görünür.

Şəxsiyyətin hüquqlarının gerçəkləşdirilməsi mürəkkəb və çox geniş təzahürdür. Buraya hüquq tətbiq edən orqanların fəaliyyətindən daha çox, şəxsiyyətin özünün aktiv fəaliyyəti daxildir. İnsan hüquqlarını təsbit edən hüquq normalarının gerçəkləşdirilməsi modelini müəyyənləşdirən qanunverici, əsasən, onların şəxsiyyət tərəfindən birbaşa istifadəsinin mümkünlüyünə önəm verir. Şəxsiyyətin öz hüquq və azadlıqlarını, bilavasitə gerçəkləşdirməsi birgə fəaliyyət göstərən və bir-birini tamamlayan bir çox amillərdən, vasitə və şəraitlərdən asılıdır. Bilavasitə, gerçəkləşdirmənin həm hüquqi, həm də psixoloji aspektlərini əhatə edən məsələlərinin kompleks tədqiqini aparmaq zəruridir. Bununla əlaqədar olaraq, bilavasitə gerçəkləşdirməni mərkəzi elementi insan və onun hüquq və azadlıqları olan müəyyən mexanizm kimi araşdırmaq lazımdır."

XXI əsr qloballaşma əsridir. Çağdaş dünyada insan böyük sərbəstliyə, azadlığa və dövlətdən asılı olmamağa can atır. Bu, müxtəlif fəaliyyət sahələrinə - iqtisadi, siyasi və sosial sahələrə aiddir. Əlbəttə ki, şəxsiyyətin hüquq və azadlıqlarını gerçəkləşdirməsi prosesində dövlətin tam muxtariyyəti haqqında danışmaq olmaz. Çünki insanın yalnız dövlət orqanlarının iştirakı ilə reallaşdıra biləcəyi Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulan hüquqları mövcuddur. Lakin bir çox hüquqları isə, şəxsiyyət, bilavasitə özü fəal şəkildə həyata keçirə bilər və keçirməlidir.

Hesab edirik ki, şəxsiyyət anlayışında ən önəmli məsələ insanın sosial dəyəridir. Z.Əsgərovun göstərdiyi kimi, Azərbaycan Respublikasının Konstitusiyasında "şəxsiyyət" anlayışı abstraksiya səviyyəsinə görə, ən ümumiləşdirilmiş kateqoriyadır və insan fərdlərinin bütün rəngarəngliyi, onların hüquqi vəziyyətini əhatə edir. "Vətəndaş" anlayışı "insan" və "şəxsiyyət" kimi kateqoriyalarla üst-üstə düşmür. A.Əliyev qeyd edir ki, vətəndaş - insandır, lakin hər bir insan vətəndaş statusuna malik deyil. Ən görkəmli şəxsiyyət də vətəndaş statusuna malik olmaya bilər.

Alimlər hələ də "insan hüquqları" və "vətəndaş hüquqları" anlayışları arasındakı nisbətə münasibətdə yekdil fikrə gələ bilməyiblər. Z.Əsgərov yazır ki, Azərbaycan Respublikasının müasir konstitusiya qanunvericiliyi şəxsiyyətin hüquqi statusunun məzmununa iki bir-biri ilə bağlı olan başlanğıc daxil edir - "insan hüquqları" və "vətəndaş hüquqları". Bu, şəxsiyyətin hüquqi statusu probleminə, "insan", "vətəndaş" və "şəxsiyyət" anlayışlarına nisbətdə yanaşmanın metodoloji istiqamətlərini dəyişir.

Bu nəticə Azərbaycan Respublikasının insan və vətəndaşların hüquq və azadlıqları sahəsində beynəlxalq standartlara riayət olunmasına sadiqliyi ilə də təsdiqlənir. Beynəlxalq-hüquqi sənədlərdə insan hüquqları elə şəxsiyyətin hüquqları anlamını verir. Bu sənədlərdə tez-tez "insan" anlayışı işlədilir. Belə ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, söhbət insan ailəsinin üzvləri olaraq, bütün insanlara məxsus olan hüquqlardan gedir. Məsələn, 7-ci maddədə bəyan edilir ki, bütün insanlar qanun qarşısında bərabərdir və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər müdafiəyə malikdirlər. Bütün insanların hansısa diskriminasiyadan müdafiə olunmaq hüququ var. Bu normanın mənasını cəmiyyətin hər bir üzvünün layiqli insani mövcudluq hüququnun müdafiəsi kimi, hər bir insanda şəxsiyyət görmək tələbi kimi anlamaq lazımdır. Şəxsiyyət haqqında fikirlərə həm beynəlxalq-hüquqi, həm də dövlətimizin qanunvericilik aktlarında çox nadir hallarda rast gəlinir.

Ş.Əliyevin fikrincə, insanın çağdaş sivilizasıyanın səviyyəsinə uyğun normal həyat tərzi sürməsinə imkan verən hər bir şeyi sosial rifah kimi tanımaq lazımdır. Azadlıq, şərəf, ləyaqət, həyat, sağlamlıq, təhlükəsizlik, təhsil, yaradıcı fəaliyyət, əmək, istirahət, ünsiyyət və bır çox digər məsələlər sosial rifah ola bilər. Rifahdan istifadə təkcə bu və ya digər maddi dəyərlərə sahib olmaqda deyil, eləcə də, davranışın özünün sərbəstliyində, hərəkətlərin seçimində (qeyri-maddi rifah) ola bilər. İnsanın əsas konstitusiya hüquqlarının bütün növlərini - şəxsi (vətəndaş), siyasi, sosial, iqtisadi və mədəni hüquqları araşdırmaqla, bunu əyani şəkildə göstərmək olar.

A.Mustafayevanın fikrincə, Azərbaycan Respublikası ilə bağlı aşağıdakıları qeyd etmək olar. AR Konstitusiyasının I maddəsinin birinci hissəsi Azərbaycan Respublikasını respublika idarəçiliyi forması ilə demokratik hüquqi dövlət olaraq bəyan edir. Hüquqi dövlətin mənası konstitusiyanın II maddəsində təfsir edilir. Burada göstərilir ki, insan, onun hüquq və azadlıqları ən ali dəyərdir. İnsan və vətəndaşların hüquq və azadlıqlarının tanınması, bunlara riayət edilməsi və müdafiəsi dövlətin vəzifəsidir. Ona görə də, əsas hüquq və azadlıqlar dövlət tərəfindən təkcə tanınmır, həm də onun mövcudluğu üçün zəruri şərt olaraq müdafiə edir.

Digər dövlətlərdə olduğu kimi, Azərbaycan Respublikasının Konstitusiyasında da əsas hüquq və azadlıqların öz əksini tapması insan və vətəndaşların başqa ümumtanınmış hüquq və azadlıqlarının inkar edilməsi, yaxud azaldılması kimi təfsir edilməməlidir. Lakin praktikada yaşamaq hüququnun bəyan edilməsi onun səmərəli müdafiəsini bildirmir.

Əlbəttə ki, bu, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyasında və çoxsaylı qanunvericilik aktlarında təsbit edilmiş yaşamaq hüququnun və onun xüsusiyyətlərinin ümumi anlayışıdır. Bu zaman imkan daxilində beynəlxalq-hüquqi normalar da nəzərə alınacaq ki, onlar, şübhəsiz, müasir dünyada insanın əsas hüquq və azadlıqlarının təsbit edilməsi üçün bazadır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 17 may

## "AzerTelecom" şirkətinin Digital HUB proqramının imkanları müzakirə olunub






Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkəti və Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin birgə təşkilatçılığı ilə "Sənaye 4.0: Rəqəmsallaşma şəraitində təhsil və karyera" adlı tədbir keçirilib.

Tədbirdə tələbələrə dördüncü sənaye inqilabı şəraitində rəqəmsallaşma, Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün "AzerTelecom" şirkəti tərəfindən icra edilən "Azerbaijan Digital Hub" proqramı və onun ölkəmiz üçün üstünlükləri, rəqəmsallaşma dövründə gənclərin təhsili və karyera seçimi barəsində faydalı fikir mübadiləsi aparılıb.

"AzerTelecom" şirkətinin Baş icraçı direktoru Fuad Allahverdiyev çıxışında rəqəmsallaşma şəraitində gənclərin qarşısında mühüm imkanların açıldığını bildirib, ölkəmizin rəqəmsal mərkəzə çevrilməsi üçün "AzerTelecom" şirkətinin icra etdiyi "Azerbaijan Digital Hub" proqramı barəsində ətraflı danışıb. F.Allahverdiyev "Digital HUB" proqramının ölkə iqtisadiyyatı, xüsusilə də informasiya və kommunikasiya texnologiyaları sektorunun davamlı inkişafı üçün yaradacağı imkanlardan bəhs edib, IT sahəsi üzrə ölkədə gənc kadrlara böyük tələbatın olduğunu, "Digital HUB" proqramının əsas məqsədlərindən birinin də məhz IT sahəsində yerli kadrların yetişdirilməsi, yeni iş yerlərinin açılması, ölkədən beyin axınının qarşısının alınması olduğunu qeyd edib. O ixtisaslı kadrların yetişdirilməsi üçün özəl sektorun təhsil müəssisələri ilə sıx əməkdaşlığının vacibliyini vurğulayıb.

Digər çıxış edənlər - Azərbaycan Texniki Universitetinin kafedra müdiri, professor Mehman Həsənov, Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin direktoru Bəxtiyar Bəxtiyarov, tanınmış biznes kouç, təlimçi və həkim-psixiatr Həlimə Qəmərlinskaya, tədbirin moderatoru, kollecin müəllimi Oqtay Əliyev və insan resurslarının idarə edilməsi sahəsində digər tanınmış ekspertlər İKT sahəsində müasir trendlər, tələbələrin düzgün ixtisas seçimi mövzularında danışıblar, həmçinin kolleclə "AzerTelecom" şirkəti arasında əməkdaşlığın vacibliyini vurğulayıblar.

"AzerTelecom" şirkəti Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə müəssisəsidir və 2008-ci ildə təsis edilib. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu enerji və nəqliyyat mərkəzi statuslarına əlavə olaraq ölkənin regional rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. "Digital Hub" proqramının məqsədi ölkəni Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün rəqəmsal mərkəzə çevirməkdir.

## Bakıda bədii gimnastika üzrə AÇ-nin açılış mərasimi keçirilib



Dünən Bakıda bədii gimnastika üzrə 35-ci Avropa çempionatının təntənəli açılış mərasimi olub. SİA-nın məlumatına görə, əvvəlcə iştirakçı ölkələrin paradı keçirilib. Çıxış edən Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov rəhbərlik etdiyi qurum adından yarış iştirakçılarını salamlayıb. Azərbaycanın artıq 4-cü dəfədir bədii gimnastika üzrə Avropa çempionatına ev sahibliyi etdiyini xatırladan F.Qayıbov ölkəmizdə idmanın bu növünün inkişafına görə Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevaya, həmçinin idmançılara və azarkeşlərə minnətdarlığını bildirib. Sonra F.Qayıbov çempionatı açıq elan edib. Əməkdar artist Sevda Ələkbərzadənin ifasında Azərbaycanın dövlət himni səsləndirilib və rəsmi hissəyə yekun vurulub.

Açılış mərasimi gimnastika üzrə milli komandalarımızın üzvlərinin və xareoqflarının iştirakı ilə "Bizim qəhrəmanlar" kompozisiyası ilə davam edib. Kompozisiyanın süjet xəttində bir zamanlar paralel dünyada yaşayan iki qardaş - Su adam və Alov adam dayanıb. Rəvayətə görə, bir gün qardaşlar oyun oynayırlar. Bu oyun zamanı Su adam qardaşına qalib gələrək 8 medal qazanır. Qəzəblənən Alov adam qardaşını insanların dünyasına qovur. İnsanların dünyasında Su adam super qəhrəmanların komandası ilə tanış olur. Bu qəhrəmanlar ona öz dünyasına qayıtmağa və qardaşının ordusuna qalib gəlməyə kömək edirlər. Bu yaxşılığın qarşılığında Su adam qazandığı medalları intiqam almaqda ona kömək edən bütün döyüşçülərə paylayır, sonuncu medalı isə sülh və dostluq əlaməti olaraq, öz qardaşına - Alov adama verir. Səkkiz medal Avropa çempionatının 8 dəst medalını əks etdirir.

Qeyd edək ki, dörd gün davam edəcək çempionatın fərdi proqramında böyük gimnastlar, qrup hərəkətləri proqramında isə gənc komandalar çıxış edəcəklər. Çempionatda 35 ölkədən gimnastlar iştirak edirlər. Bakı 2007-ci, 2009-cu və 2014-cü illərdə də bədii gimnastika üzrə Avropa çempionatına ev sahibliyi edib.

## Ronaldo iftar süfrəsi üçün Fələstinə 1.5 milyon dollar yardım edib



"Yuventus"un hücumçusu Kristiano Ronaldo səxavəti ilə növbəti dəfə gündəmə gəlib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, portuqaliyalı superulduz Ramazan ayı münasibəti ilə Fələstinə 1.5 milyon dollarlıq yardım edib. Həmin vəsaitin iftar yeməklərinə xərclənəcəyi bildirilir. Qeyd edək ki, bu, Ronaldonun Fələstinlə bağlı ilk xeyirxah addımı deyil. O, 2014-cü ildə də sözügedən ölkəyə 2 milyon dollar bağışlamışdı.

## AL-in final matçının bilet satışının növbəti mərhələsi başlayacaq




Mayın 29-da Bakı Olimpiya Stadionunda təşkil olunacaq UEFA Avropa Liqasının final oyununa bilet satışının üçüncü mərhələsi yaxın günlərdə həyata keçiriləcək. SİA-nın məlumatına görə, ilkin mərhələdə biletlər UEFA tərəfindən onlayn satışa çıxarılmış, sonra isə Bakı şəhərindəki müxtəlif satış nöqtələrində biletlərin fiziki satışı təşkil olunmuşdu. Satış prosesinin üçüncü mərhələsi üçün ayrılmış biletlər yaxın günlərdə UEFA tərəfindən təqdim olunacaq və paytaxtımızdakı müxtəlif satış nöqtələrində satılacaq.

## "Əminəm ki, azarkeşlər Bakıda olmaqdan böyük zövq alacaqlar"



2019-cu ilin Rusiya çempionu adını qazanmış "Zenit" klubunun baş məşqçisi Sergey Semak ümidvar olduğunu bildirib ki, britaniyalı azarkeşlər Bakıya gəlməkdən imtina etməyəcəklər, keçmiş SSRİ və Şərqi Avropa ölkələrinə stereotip münasibət isə tədricən dəyişəcək.

AZƏRTAC xəbər verir ki, S.Semak bu sözləri Rusiyanın "İnfo24" informasiya saytına müsahibəsində söyləyib. O deyib: "Bakı çox gözəldir, İçərişəhər əsrarəngizdir. Avropa Liqasının final oyunu üçün bu seçimi tamamilə dəstəkləyirəm! Uzaq məsafədə yerləşməsinə gəlincə isə ildə bir dəfə belə uzun məsafəni qət etmək çətin deyil. Əminəm ki, azarkeşlər Bakıda olmaqdan böyük zövq alacaqlar".

Bunun yeni ölkələrlə tanış olmaq üçün yaxşı fürsət olduğunu vurğulayan tanınmış futbolçu deyib: "Moskvada da, Kiyevdə də finallar keçirilib. Belə çempionatlar başqa ölkələrlə tanış olmaq üçün gözəl imkan yaradır. Dünya çempionatının Rusiyada keçirilməsinə də bəziləri şübhə ilə yanaşırdı, amma çox yaxşı keçdi, azarkeşlərin çoxu özü üçün Rusiyanı kəşf etdi. Yeni ölkəni öz gözünlə görüb nəticə çıxarmaq daha məntiqlidir".

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600